
Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 11 (24.446)
15 mart 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi

# Ədalətli dünya düzəni naminə aparıcı beynəlxalq platforma – Qlobal Bakı Forumu




Bu günlərdə dünyanın müxtəlif yerlərindən diqqətlər Azərbaycanın paytaxt şəhərinə yönəlib. Bakıda ayrı-ayrı ölkə prezidentlərinin, baş nazirlərin, nazirlərin və beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə "Dünya düzəninin yenidən düşünülməsi: çağırışların fürsətə çevrilməsi" mövzusunda mötəbər tədbir keçirilir. Martın 13-də işinə başlayan XII Qlobal Bakı Forumunun açılış mərasimində çıxışı zamanı Prezident İlham Əliyev dərinməzmunlu nitqində dünya düzəninin formalaşması istiqamətində vacib tezisləri diqqətə çatdırdı, ölkəmizin beynəlxalq siyasi, iqtisadi münasibətlərə töhfələrindən, sağlam gələcək naminə həyata keçirdiyi layihələrdən danışdı, bəşəriyyəti fəlakətlərə sürükləyən rejimlərə, dairələrə qarşı sərt mesajlar ünvanladı.

Səhifə ➡ 4

# Azərbaycan enerji təchizatı baxımından Şimali Makedoniya üçün vacib tərəfdaşdır



*Azərbaycanın müəllifi olduğu və XXI əsrin meqa layihələrindən sayılan Cənub Qaz Dəhlizi (Cənubi Qafqaz Boru Kəməri, TANAP, TAP) bu gün Avropa ölkələrinin marağındadır və son dövrlərdə interkonnektorlar vasitəsilə nəhəng proyektdən faydalanmaq təşəbbüsləri xeyli artıb. Bu baxımdan təsadüfi deyildir ki, Avropa İttifaqı liderləri tərəfindən Azərbaycan "etibarlı tərəfdaş qaz təchizatçısı" kimi tanınır. Respublikamızı özünə etibarlı, vacib enerji tərəfdaşı hesab edən Avropa ölkələrindən biri də Şimali Makedoniyadır. Şimali Makedoniyanın Prezidenti Qordana Silyanovska-Davkovanın ölkəmizə sayca ikinci səfəri, səfər çərçivəsində keçirilən görüşlər, liderlərin mətbuata bəyanatları da bu fikirləri bir daha təsdiqlədi.*

Azərbaycanla Şimali Makedoniya arasında diplomatik əlaqələr 1995-ci ilin iyun ayının 28-də qurulub və ilk növbədə, xanım Prezidentin bu səfəri əlaqələrin 30 illiyinə təsadüf etməsi baxımından əlamətdardır. Digər tərəfdən, respublikamız hər zaman inkişaf etməkdə olan kiçik dövlətlərə öz dəstəyini ən bariz şəkildə ifadə edib və bunu təkcə sözdə deyil, əməldə də göstərib. Ötən ilin noyabrında Bakıda keçirilən COP29-da Şimali Makedoniya lideri də iştirak edirdi və həmin mötəbər konfransda da ölkəmizin bu xeyirxah, humanist missiyası bir daha özünü bariz şəkildə göstərdi. Azərbaycan liderinin Qərb siyasi dairələrinin, xüsusilə də Fransanın müstəmləkəçi siyasətini sərt tənqid etməsi, konfransın sonunda əldə olunan tarixi razılaşmalara dair ortaya qoyduğu qətiyyət, iradə haqqı tapdanılan kiçik dövlətlərin Azərbaycana olan inam və etibarını daha da artırdı. Və bu baxımdan son vaxtlarda Afrika dövlət başçılarının ölkəmizə səfərləri, əməkdaşlıq əlaqələrini gücləndirmək üçün təşəbbüslər göstərməsi heç də təsadüfi deyildir.

Səhifə ➡ 5

## Xoşbəxt adam



Səhifə ➡ 3

## Azərbaycanın növbəti diplomatik nailiyyəti, mühüm idman hadisəsi – III MDB Oyunları



Səhifə ➡ 6

## "Şərq qapısı" qəzetinin maddi-texniki bazası yenilənib, informasiya mərkəzi istifadəyə verilib



Səhifə ➡ 7

# HEYDƏR ƏLİYEV Naxçıvanı qorudu



## Prezident İlham ƏLİYEV:

*“O illərdə ancaq Ulu Öndər Heydər Əliyevin əzmkarlığı, qətiyyəti və siyasi bacarığı Naxçıvanı böyük bəlalardan qorudu... Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu.”*

### *Bura Vətəndir, bura Nəqşicahandır*

O Naxçıvan ki hər daşında ox nişanı, şəhid qanı var. O Naxçıvan ki dəfələrlə düşmən hücumuna sinə gərib, yüzlərlə övladını Vətən yolunda qurban verib, amma mətanətini itirməyib. Məğrur Əlincəsi, tarixə naxış salan Əcəmisi, dünyaya dövlətçilik dərsi verən Atabəylərі ilə anası Azərbaycanın döyünən ürəyi, tarixboyu türk-İslam aləminin alınmaz qalası, tarixin uzun bir dövründə Azərbaycan dövlətçiliyinin əməl və yaddaş mərkəzi olub. Bu şanlı missiya bu gün də davam etməkdədir.

Elə məhz buna görədir ki, bu müqəddəs Nuh məkanının dəyəri düşmənlərimizə də əyan olub. Bu səbəbdəndir ki, yüz illər boyu bu torpaqlara sahiblənməyə çalışıblar, ancaq acı məğlubiyyətdən başqa heç nə əldə edə bilməyiblər. Doğma yurdumuz tarixboyu torpağımıza göz dikənlərə qeyrətdən, Vətən sevgisindən, torpaq təəssübkeşliyindən ucaldılmış bir sədd olub. Çünki bu yurdun hər daşı sevgidən, Vətən məhəbbətindən, palçığı şəhid qanından yoğrulub. Odur ki, qədim Nuh yurdunun tarixinin hər səhifəsində min-min salnamə var. Bu salnamələr bir yerə toplananda isə qədim diyar haqqında ümumi bir fikir formalaşır: Bura VƏTƏNDİR! Bura Nəqşicahandır!

O Nəqşicahan ki uzun illər boyu buradan yolu düşən dosta qürur, düşmənə gözdağı, tarixboyu Azərbaycanın yenilməz, ərən qalası, vətənsevərliyi, dönməzliyi ilə nümunə olub. Tarixin bütün dövrlərində öz cəsarətləri, Vətən sevgiləri ilə seçilən naxçıvanlılar dəfələrlə qədim yurda qarşı olan hücumlara sinə gərmiş, onu anası Azərbaycandan ayırmaq istəyənlərlə mətinliklə mübarizə aparıb, qalib gəliblər.

Şərqdə ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı illərdə mənfur, məkrli qonşusu ermənilərin ərazi iddiaları ilə üz-üzə gələn naxçıvanlılar öz qəhrəmanlıq salnaməsində daha bir səhifə açdı. Həmin vaxtlar Azərbaycan Xalq Cümhuriyyəti düşdüyü çətin vəziyyətlə əlaqədar olaraq Naxçıvana lazım olan köməyi göstərə bilmirdi. Naxçıvan əhalisi, yerli ziyalılar erməni daşnaklarına qarşı inadla mübarizə apardı və mənfur düşmən öz arzusunu reallaşdıra bilmədi. Erməni quldurları kəndlərimizə hücumlar edib tarixdə görülməmiş soyqırımlar törətsələr də, sakinlər öz canları bahasına onları qovub yurdumuzdan çıxardılar. Həmin illərdə naxçıvanlıların qəhrəmanlığı haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin nümayəndəsi Nəsib bəy Yusifbəyli parlamentdəki çıxışında deyirdi: “İgid naxçıvanlılar, şərurlular bütün çətinliklərə özləri qalib gəldilər, onlar həyatlarını, ailələrinin şərəfini, vardövlətlərini riskə qoyaraq doğma torpağa, Vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi gördən sonra naxçıvanlıların qanuni hüquqlarını danmayacaqlar”.

Ən çətin dövrlərindən birini 1918-ci ildə yaşayan Naxçıvan torpağı sovet əsarətinə keçəndən sonra torpaqları keçmiş sovet rejiminin rəhbərlərinin əli ilə hissə-hissə düşmənə verilib Azərbaycandan coğrafi cəhətdən ayrılsa da, yenə də öz ana Vətəninin alınmaz qalası olaraq qaldı.

### *Burada müasir Azərbaycanın təməli atıldı*

70 il sovet əsarətində qalan Naxçıvan Türk dünyasının qapısına vurulan böyük bir zənciri xatırladırdı. Ta ki həmin günə kimi. Həmin gün 70 illik əsarət zəncirini öz yalın əlləri ilə söküb atan naxçıvanlılar Turanın başı üstündəki qara buludu da dağıtdılar. Amma SSRİ-nin dağılması nəticəsində yaranmış hərc-mərclikdən istifadə edən məkrli düşmənlərimiz yenə öz çirkin əməllərini işə saldılar. Vaxtilə Zəngəzuru işğal edənlər indi də Naxçıvana girişməyə cəhd etdilər. Amma naxçıvanlılar yenə mətanətini itirmədi. Həmin illərdə muxtar respublika ağır sınaqlar, məhrumiyyətlər qarşısında qalsa da, Ulu Öndər Heydər Əliyev kimi dünya siyasətinin korifeyi Naxçıvanda yaşayırdı və muxtar respublikaya rəhbərlik edirdi. Məhz Heydər Əliyev amili bölgəni labüd fəlakətdən xilas etdi. Bu həmin vaxtlar idi ki, Naxçıvan bir tərəfdən xain qonşuların hücumlarına məruz qalır, təkbaşına müqavimət göstərir, torpaqlarımız igid oğulların şücaəti, canı-qanı bahasına qorunurdu. Digər tərəfdən isə qədim yurdumuzun blokadaya salınması ilə bağlı yaranmış çox ciddi problemlərlə mübarizə aparmalı olurdu. Buna, əslində, ölüm-dirim mübarizəsi də deyə bilərik. Nə mavi yanacaq var idi, nə də işıq. Sərhədimizə amansız hücumlar edildiyi həmin illərdə çox çətin sınaqla mühasirə və ondan da betər olan aclıqla üzləşmişdi naxçıvanlılar... Bütün bunlara baxmayaraq, qazandığımız müstəqilliyi itirməməyə səy göstərir, torpağımızı qoruyur, bir addım belə geri çəkilmirdik. Görkəmli dövlət xadimi Heydər Əliyevin ətrafında sıx birləşən muxtar respublika sakinləri gələcəyə böyük ümidlə baxır, bütün məsələlərin öz həllini tapacağına inanırdılar. Onun xalqının, xalqın isə Onun yanında olması Naxçıvanı və Azərbaycanı qorudu. Bu il martın 5-də Ankarada İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimində ölkə başçısının dediyi kimi:

***“Naxçıvan qədim Azərbaycan torpağıdır. Ancaq artıq bir əsrdən çoxdur ki, Azərbaycanın əsas hissəsindən ayrılıb. Bunun səbəbi ondan ibarətdir ki, Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ildə süqut edəndən beş ay sonra sovet hakimiyyəti Qərbi Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana birləşdirdi və beləliklə, Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvanla quru bağlantısı pozulub. Bir əsrdən çox davam edən bu ədalətsizlik Naxçıvanda yaşayan bizim soydaşlarımızın həyatına çox mənfi təsir göstərmişdir. Xüsusilə Birinci Qarabağ savaşı başlayan kimi Ermənistan Qarabağı işğal etdi və eyni zamanda Naxçıvanı blokadaya aldı. Onların planları Naxçıvanı da işğal etmək idi. Ancaq o zaman mənim atam Heydər Əliyev Naxçıvanın rəhbəri kimi buna imkan vermədi və Naxçıvanı qorumaq üçün bütün naxçıvanlılar səfərbər oldular, öz doğma torpaqlarını qorudular və işğalçını yerində oturtdular”.***

Bəli, həmin illərdə Naxçıvan sakinləri ilə bərabər qazsız, işıqsız, soyuq, şaxtalı günlərdə çıraq işığında yaşayıb gərgin əmək sərf edərək böyük nailiyyətlərin təməlini atdı yurdumuzun dahi oğlu. Dərin zəkası, uzaqgörənliyi, tükənməz enerjisi və təhlil bacarığı görkəmli dövlət xadiminə imkan verirdi ki, ən çətin və çıxılmaz vəziyyətlərdə öz xalqı və Vətəni üçün mümkün variantların ən düzgününü seçib gərginliyi aradan qaldırsın. Qaldırdı da. Həm düşmənin qarşısı alındı, həm də Naxçıvanın haqq səsi dünyaya yayıldı. Ümummilli Liderimiz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışdığı illərdə mühüm siyasi və ideoloji amilə çevrilən tarixi qərarlar qəbul edib. O, gəlişi ilə Naxçıvana yeni nəfəs gətirdi, ağır blokada şəraitində olmasına baxmayaraq, bu qədim diyarı dirçəltməyə başladı. Təkcə muxtar respublika üçün deyil, bütün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən, dövlət quruculuğu prosesində mayak rolunu oynayan qərarların qəbul edilməsinə nail olundu. Naxçıvanlılar Ulu Öndərini daim uca tutub onun hər gəlişində küçələrə, meydanlara çıxır, böyük məhəbbət hissi ilə qarşılayırdılar. Həmin görüşlərdən birində Ulu Öndər deyirdi: ***“Sizinlə məni bağlayan təkcə bu torpaqda doğulmağım, böyüyüb həyata atılmağım deyil. Sizinlə məni bağlayan Azərbaycan Respublikası, o cümlədən muxtar respublika üçün çox ağır bir dövrdə – 1990-cı ildən sizinlə bir yerdə yaşamağım, Naxçıvanı sizinlə birgə qorumağımdır”.***

Bəli, həmin illərdə burada bu qədim Azərbaycan torpağında müasir Azərbaycanın təməl daşı qoyuldu. Naxçıvanı qorumaqla Azərbaycanın gələcəyi qorundu. Bu həmin Azərbaycan idi ki, iki əsrdən çox bir vaxtda parçalanır, hissə-hissə pay verilirdi. Bu gün həmin parçalanmaq istənilən Vətənin yerində qalib dövlət, əhalisi sürgünə, köçə məcbur edilən xalqın yerində isə qalib, başı dik, alnıaçıq azərbaycanlılar var. Vətən oğlunun iradəsi və siyasi gücündən doğulan müasir, qalib Azərbaycan.

### *Naxçıvan türk-İslam dünyasına bir qapıdır*

Vətən savaşı – Azərbaycan tarixinə qızıl qanla yazılan şanlı günlər. Azərbaycan tarixboyu ən böyük qələbəni məhz 44 gündə qazandı. Azərbaycan deyiləndə ayağa qalxdı bu günə kimi bizə xor baxanlar. Ordumuz döyüş meydanında, xalqımız öz evində elə bir rəşadət və igidlik nümayiş etdirdi ki, bütün dünya heyran qaldı bir xalqın igidliyinə, bir ordunun cəsarətinə. Evi düşmən mərmisi ilə xarabaya dönən sakinlər “Var-dövlətimiz Azərbaycan əsgərinə qurban olsun”, – dedilər. Gəncədə ağır silahların zərbəsi ilə dağılan evin xarabalığı altından çıxarılan 6 yaşlı oğlan uşağı üz-gözü qan içində olsa da, gülümsəyib “Biz varıq və var olacağıq”, – dedi. Və biz müharibə meydanında qələbə qazanıb bu qələbəni siyasi masada qələbəyə də çevirdik.

Azərbaycan Prezidenti Naxçıvan Muxtar Respublikasının blokadadan azad edilməsi istiqamətində çox önəmli və tarixi bir məsələnin həllini təmin edərək 2020-ci il noyabrın 10-da imzalanmış birgə bəyanata qədim diyarla bağlı xüsusi bir maddəni – 9-cu bəndi salmaqla önümüzdəki illərdə muxtar respublikanın beynəlxalq nəqliyyat dəhlizinə çevrilməsinə şərait yaratdı. Zəngilandan Naxçıvana dəmir yolu xəttinin və avtomobil yollarının tikintisi gələcəkdə Zəngəzur dəhlizinin açılması ilə yanaşı, həm də Naxçıvanı Türk dünyası üçün qapıya çevirəcək. Bəli, Ulu Öndərin arzuladığı günə, həmin günə az qalıb. Qədim türk yurdunun türk-İslam dünyasına qapı olmasına az qalıb.

**✍ Ramiyə ƏKBƏROVA**

# Xoşbəxt adam



***Hər il Novruz gələndə xalqımız özünün ən əziz bayramını böyük təntənə ilə qeyd edir, insanlar bir-birinə cansağlığı, xoşbəxtlik, bahar qədər gözəl və təravətli həyat arzulayırlar. Bütün Türk dünyasının bu ümumi böyük bayramını Azərbaycan artıq beş ildir ki, xüsusi coşqu, işğaldan azad olunmuş torpaqlarımızda aparılan genişmiqyaslı quruculuq, doğma yurd-yuvasına qayıdan insanların sevinc ab-havası ilə qeyd edir. Prezident cənab İlham Əliyev hər dəfə böyük qürurla yandırdığı Novruz tonqalı ilə Qarabağa qayıdan hər bir yerli sakinin bundan sonra öz evində firavan yaşaması üçün ən ülvi xeyir-duasını verir, insanlara ən xoş diləklərini çatdırır. Bu, Azərbaycanın gələcəyi üçün bütün çətinliklərin öhdəsindən layiqincə gəlib, ölkəsinin hər bir vətəndaşını xoşbəxt görmək istəyən dövlət başçısının ən gözəl arzularıdır.***

Bir insan ömrü üçün bu dünyanın gözəlliklərini doyunca yaşayıb, özü, ailəsi və mənsub olduğu xalqının dövləti üçün xidmətlər etmək, bu mənada, ən xoşbəxt hisslərdir. Təkcə özünün deyil, öz biliyi, zəhməti və əməlləri ilə digər insanların da həyatını yaxşıya doğru dəyişdirib onlara həqiqi xoşbəxtliyi yaşadan liderlərin cəmiyyət qarşısındakı xidmətləri isə bu gün bir çox ölkələrin xalqları üçün, sadəcə, arzuedilən olub, bəziləri üçün isə, ümumiyyətlə, üfüqdə də görünmür. Azərbaycan xalqının bu gün yaşadığı xoşbəxt həyatı hər zaman fəxrlə bölüşən dövlət başçımız cənab İlham Əliyevin ata vəsiyyətinə sədaqəti ilə həmişə qürur duyduğu belə gözəl hisslər isə onun bu dünyanın ən bəxtəvəri olduğunu deyir. Ulu Öndər Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycan Respublikası tam suverenliyinə qovuşub, dünyanın aparıcı ölkələri sırasında yer alması, güclü iqtisadiyyatı və ordusu ilə heç kimsədən asılı olmadan yaşamaq arzusunu reallığa çevirmək bir oğul üçün xoşbəxt həyat, bir dövlət başçısı üçün isə məqsədinə çatmaq istədiyi ən gözəl hədəfdir.

Müstəqil dövlətin vətəndaşı olmaq hər bir insan üçün böyük xoşbəxtlik, bu dövlətin başçısı üçün isə ikiqat xoşbəxtlikdir. Əvvəlcə çox çətin görünən, ancaq bu gün xalqının etimadı və dəstəyi ilə artıq reallığ olan tam suverenlik dövlət başçımızın yürütdüyü xarici siyasətdəki gücünü beşqat artıran, kimliyindən asılı olmayaraq, bütün dünya liderləri ilə təmaslarında güclü xarizmasını ortaya qoyan ən mühüm faktordur. Suverenlik ölkəmiz üçün elə bir nemətdir ki, onun gücü ilə Azərbaycan vətəndaşları dünyanın harasında olursa-olsun, öz pasportu ilə fəxr edir, əsgərlərimiz keşiyində dayandığı sərhədləri göz bəbəyi kimi qoruyur, dövlət başçımız isə ölkəsini bütün beynəlxalq platformalarda, ikitərəfli görüşlərdə və rəsmi səfərlərdə tam qürurla təmsil edə bilir. Bir sözlə, bu gün tam suverenliyinə qovuşmuş Azərbaycan elə bir gücə çatıb ki, o, liderinin başçılığı altında öz milli maraqları çərçivəsində xarici siyasətini istənilən istiqamətdə qura bilir. Bu, hazırkı dünyada Azərbaycandan daha geniş əraziyə və iqtisadi gücə malik olan bir çox dövlətlər üçün uzaq olan bir xoşbəxtlikdir.

Azərbaycan Cənubi Qafqazın aparıcı iqtisadi və hərbi gücünə sahibdir. Bu reallığı hər çıxışında ortaya qoyan dövlət başçımız ölkəmizin dostlarına, qonşularına və eləcə də dost olmayanlara bunları açıqca ifadə etməklə bu regionda söz sahibinin məhz Azərbaycan olduğunu vurğuladığı zaman yaşadığı dərin məmnuniyyət hər birimizdə qürur yaradır. Bir zamanlar erməni zülmündən qaçan Kəlbəcərdəki mülki insanları qurtarmaq üçün bir helikopteri belə olmayan Azərbaycan bu gün sahib olduğu maddi və maliyyə imkanları, mülki və hərbi sənaye infrastrukturu ilə təbii fəlakətlə üzləşən bir çox dost və qardaş ölkəyə cəmi bir günün içində yardıma gələrək burada yaşayan insanların köməyinə çatır. Bunu dünyaya nümayiş etdirən dövlət başçımız işğala məruz qalmış ölkəni cəmi 20 il ərzində qalib ölkəyə, yardım alan ölkəni isə yardım göndərən ölkəyə daşıya bilməyin xoşbəxtliyi içərisindədir.

Prezident cənab İlham Əliyev çıxışlarında müasir dünyadakı düzənin pozulduğunu, bu düzənə məsul olan beş böyüklərin planetdəki ümumi sülhə vurduğu zərərləri açıqca göstərərək burada Türk dünyasına doğru istiqamətini seçməklə ölkəmizin gələcəkdə bir qlobal güc ünsürü olmaq yolunda geniş perspektivlər açmışdır. İşğaldan azad olunmuş Qarabağa, Şuşaya da səfərlər edib buradan dünyaya mesajlar verən qardaş türk dövlətləri ilə qurulmuş sıx əlaqələr, həmçinin dövlət başçımızı ölkəsinin hava məkanında qırıcı təyyarələrin müşayiəti ilə qarşılayan qardaş Pakistanla yaradılmış ittifaq Azərbaycanın mürəkkəb beynəlxalq siyasi konyunkturada əlini daha da gücləndirməklə bölgəmizin sülh qarantoru halına gətirmişdir. Bu mənada, dövlət başçımızın regional və beynəlxalq siyasi arenadakı aktorlar arasında qazandığı şəxsi nüfuzu birbaşa olaraq ölkəmizin də qlobal arenadakı adını yüksəklərə daşıyaraq təkcə müsəlman və türk dövlətləri arasında deyil, həm də kiçik ada dövlətləri də daxil olmaqla bütün dünyada hörmətlə çəkilməsinə nail olmuşdur. Odur ki, bu gün işğala məruz qalıb çox ciddi iqtisadi, hərbi-siyasi problemlərlə üzüzə qalmış ölkələrin politoloqları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi, bu mənada da, ən xoşbəxt dövlət başçısı saymaqda olduqca haqlıdırlar.

Azərbaycan Respublikası əhali sayı və mövcud iqtisadiyyatının həcmi ilə müqayisədə dünyanın ən güclü ordusuna malik ölkələr arasında yuxarı pillələrdə yer tutan, bununla da qazandığı qələbələrlə haqlı olaraq fəxr edən bir ölkədir. Dövlət başçımızın 44 günlük II Qarabağ müharibəsi dövründə və ondan sonrakı periodda trendə çevrilmiş "Dəmir yumruq yerindədir!" ifadəsi hələ də düşmənin canına qorxu salmaqla bərabər, ordu quruculuğunda zamanını boşa vermiş bir çox dövlətlərin də başçılarını dərindən düşündürməkdədir. Bu mənada, müzəffər Azərbaycan Ordusunun Ali Baş Komandanı cənab İlham Əliyev qəhrəman əsgərlərimizin hər Zəfər paradını, hər əsgər salamını aldıqca əziz şəhidlərimizin qanının yerdə qalmadığına bir daha şahid olur və bununla fəxr edirik. Bunu təkcə ölkəmizin vətəndaşlarına deyil, bütün dünyadakı azərbaycanlılara bəxş edən Prezidentimiz, bu mənada, bütün 50 milyonluq həmvətənlərimizin komandanıdır.

Ölkəmizin sadə vətəndaşlarının da ən çox sevdiyi İlham Əliyevin dövlət başçısı kimi paytaxt Bakıda, səfər etdiyi regionlarda, xüsusən işğaldan azad olunmuş ərazilərə qayıdan keçmiş məcburi köçkünlərlə keçirdiyi görüşlər əsl bayrama, insanların yaddaşında uzun müddət ərzində yaşayan xoş xatirələrə çevrilir. Bayram günlərində, regionlara səfərində, əlamətdar tarixlərdə və müxtəlif açılış tədbirlərində vətəndaşlarla görüşlərində dövlət başçımız adamların ona olan məhəbbətini daha da artıran sadəliyi və səmimiyyəti, şəhid valideynlərinə, qazilərə, ağsaqqal və ağbirçəklərə göstərdiyi yüksək ehtiramı, balacalara olan sevgisi ilə hamının qəlbində yer tutmuşdur. Bu mənada, Prezidentlə olan xatirə fotolarını doğmaları ilə bölüşən yüz minlərlə Azərbaycan vətəndaşının paylaşdığı statuslara göndərilən milyonlarla ürəklər belə xoş anları yaşayan insanların sayından xəbər verir.

Bu dünyanın ən böyük səadəti ailə xoşbəxtliyi, gözəl ailə başçısı olmaqdır. Ailə üzvləri ilə birgə tez-tez ictimaiyyət arasına qatılan dövlət başçımız ölkəmizin sosial, mədəni və humanitar sahələrində həyat yoldaşı və ən yaxın silahdaşı Mehriban xanım Əliyevanın yaxın dəstəyinə arxalanmaqla Azərbaycanın xoşbəxt gələcəyi üçün əzmlə çalışmaqdadır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və Heydər Əliyev Fondunun rəhbəri kimi mühüm ictimai-siyasi vəzifələr daşıyan Mehriban xanım Əliyeva övladlarının və nəvələrinin təhsilli və milli dəyərlər əsasında böyüməsinə xüsusi diqqət yetirməklə əsl azərbaycanlı xanımı nümunəsi göstərir. Bu gözəl ailənin başçısı Prezident cənab İlham Əliyev özünün bütün enerjisini, bilik və bacarıqlarını ölkəmizin daha da güclü olması yolunda sərf etməklə bütün Azərbaycanın da böyük bir ailə kimi vahid bir ideologiya – Azərbaycançılıq yolunda bütünləşməsinə xidmət edir. Bu, son 200 il ərzində xalqımızın ən böyük, ən ədalətli qələbəsini qazanmış Liderin ən məsuliyyətli vəzifəsi, ən xoşbəxt missiyasıdır.

**Əli CABBAROV**

# Ədalətli dünya düzəni naminə aparıcı beynəlxalq platforma – Qlobal Bakı Forumu

> “Həmişə olduğu kimi, əminəm ki, forum və onun üzvləri, xüsusən də indi, kəskin geosiyasi dəyişikliklərdən sonra keçirilən tədbirdə ideya və yanaşmalar irəli sürəcəklər.”




(əvvəli 1-ci səhifədə)

Hər il təşkil edilən Qlobal Bakı Forumu barədə onu diqqətə çatmək olar ki, forumun təşkilatçısı olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubiley tədbirləri çərçivəsində 2012-ci il sentyabrın 30-da böyük mütəfəkkirin vətəni Gəncədə keçirilmiş xüsusi toplantıda təsis edilib. 2013-cü ildən keçirilən Qlobal Bakı forumlarında dinlərarası, mədəniyyətlərarası dialoq, regionda gedən proseslər, bölgədəki münaqişə ocaqları ilə bağlı vəziyyət, etnik və digər zəmində baş verən münaqişələr və bir sıra digər qlobal problemlər geniş müzakirə edilir, onların həlli yollarının tapılması istiqamətində fikir mübadilələri, təhlillər aparılır. Xüsusilə 2019-cu ildə Koronavirus pandemiyasına qarşı mübarizədə Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan dövlətinin kiçik ölkələrin tibbi yardıma əlçatanlığının artırılmasına dair ədalətli mövqe ortaya qoyması və 2020-ci ildə qazanılan tarixi zəfərdən sonra Qlobal Bakı Forumuna maraq daha da çoxalıb, iştirakçıların sayında ciddi artım müşahidə edilir.

Martın 15-dək davam edəcək XII forumda isə dünyanın müxtəlif regionlarından 400-ə yaxın nüfuzlu siyasi xadim, o cümlədən azı 50 fəaliyyətdə olan və sabiq prezident, baş nazir, həmçinin BMT strukturlarının rəhbərləri, alimlər və ekspertlər iştirak edirlər. Forum çərçivəsində “Geosiyasi dəyişmələr: məsuliyyətli tərəfdaşlıq rəqabətə qarşı”, “Çoxqütblü dünya üçün multilateralizmə yenidən baxılması” və “Gələcək üçün BMT paktı: yeni qlobal konsensusun yaradılması” mövzularında panellərin təşkili, 2025-ci il “Nizami Gəncəvi” Beynəlxalq Mükafatının təqdimi nəzərdə tutulub.

Azərbaycan uzun illərdir ki, dünya düzəninin nizama salınması, qlobal problemlərin həlli istiqamətində üzərinə düşən öhdəlikləri yerinə yetirməklə, xüsusilə kiçik dövlətlərin, xalqların hüquqlarının müdafiəçisinə, haqq səsinə çevrilib. Bir az




əvvəl də qeyd etdiyimiz kimi, ölkəmiz Qoşulmama Hərəkatına sədrlik etdiyi dönəmdə, xüsusilə COVID-19 pandemiyasına qarşı mübarizədə ədalətli mövqe ortaya qoyub. Belə ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının pandemiyaya həsr olunmuş xüsusi sessiyasının keçirilməsi və peyvənd millətçiliyi məsələsinə diqqət çəkilməsi Azərbaycanın qlobal ədalət və bərabərlik prinsiplərinə sadiqliyini bir daha sübut edib. Eyni zamanda ölkəmiz pandemiya ilə mübarizədə Qoşulmama Hərəkatına üzv dövlətlərə könüllü maliyyə yardımı ayıraraq qlobal həmrəylik və dəstək nümunəsi göstərib. Göstərilən bu və digər təşəbbüslərin nəticəsi olaraq, hərəkata üzv ölkələr beynəlxalq arenada Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir və ölkəmizə yüksək etimad, hörmət nümayiş etdirirlər.

2020-ci ildə regional sülhə, dialoqa təhdid sayılan erməni faşizmini məğlub edəndən sonra ölkəmizin qlobal problemlərlə mübarizəsində ən önəmli nailiyyəti isə ötən ilin noyabrında keçirilən COP29 çərçivəsində oldu. Belə ki, Bakıda 197 ölkədən təmsilçilər, 70 dövlət və hökumət başçısı bir araya gələrək iqlim dəyişikliklərinin təsirinin azaldılmasına dair geniş müzakirələr apardılar və ən nəhayət uzun müddətdir, həllini gözləyən məsələlərə dair qətiyyətli mövqe ortaya qoyuldu, tarixi qərarlar qəbul edildi. Başqa sözlə, həmin günədək siyasi arenada qələbə qazanan qalib, suveren ölkə kimi tanınan Azərbaycan COP29-dan sonra həm də iqlim diplomatiyasında dönüş nöqtəsinə nail olan, yaşıl dünya naminə həmrəyliyə töhfə verən məmləkət kimi şöhrət tapmağa başladı. Martın 13-də Prezident İlham Əliyev XII Qlobal Bakı Forumunun açılış mərasimində çıxışı zamanı COP29 çərçivəsində qazanılan uğurlara xüsusi toxundu, “Bakı sıçrayışı” adlandırılan bu konfransın mühüm irs olduğunu vurğuladı. Sitat: ***“Əsas mərhələlərdən, nailiyyətlərdən biri 10 ildən artıq keçilməz nöqtə olan Paris Sazişinin 6-cı maddəsi üzərində konsensus idi. On ildən artıq idi ki, tərəflər razılığa gələ bilmirdi. Lakin biz burada konsensus əldə edə bildik və karbon bazarını işlək etdik. Bir sözlə, bu, prosesin gələcəkdə inkişafı üçün çox əhəmiyyətlidir. Digər mühüm nailiyyət ondan ibarət idi ki, Bakıda COP29-da biz bərpa olunan enerji layihələri üçün maliyyələşmənin əvvəlki 100 milyarddan 300 milyard dollara qədər artırılmasına nail olduq. Bəli, bilirik ki, bəzi ölkələr bundan tam razı qalmadı. Onlar daha böyük artım istəyirdilər. Lakin düşünürəm ki, bizdə maliyyələşmənin üç dəfə artırılması lazımınca qiymətləndirilməlidir. Buna görə Bakıdakı COP29 “Bakı sıçrayışı” adlandırıldı və bu, mühüm irsdir”.***

Bəli, COP29-un Azərbaycanda keçirilməsi qərarı veriləndən özünə yer tapa bilməyən Qərb dairələri, xüsusilə də Fransa diktaturası hər vəchlə konfransın işinə xələl gətirməyə çalışırdı. Ancaq 44 günlük Vətən müharibəsində olduğu kimi, bu dəfə də heç bir əngəl siyasi iradənin qarşısında davam gətirə bilmədi. Beləliklə, birillik boykot kampaniyasını 11 gün ərzində iflasa uğradan COP29-a uğurlu sədrlik etməklə Azərbaycan bu müddətdə ölkəmizə qarşı planlanan bütün təxribatların qarşısında mətinliklə dayandı, konfransı əsl məramından kənarlaşdırmağa, hədəfindən çaşdırmağa çalışan qüvvələrin bədnam niyyətlərini ürəyində qoydu. Yekunda qəbul olunan qərarlar ümumbəşəri problemin həllinə yol açmaqla Azərbaycanın hələ uzun illər COP-un tarixindəki rolunun müstəsnalığını qoruyub saxlayacağını göstərir.

Martın 13-də XII Qlobal Bakı Forumunun açılış mərasimində dərinməzmunlu çıxışında ölkə başçımız dünya nizamını pozmağa, sülhə, dialoqa xələl gətirməyə çalışan qüvvələrə qarşı iradəni bildirdi, beynəlxalq ictimaiyyətə ciddi çağırışlar etdi. Təbii ki, bu çağırışlarda Azərbaycanın uzun illər əziyyət çəkdiyi erməni vandalizmi, erməni terroru və bu terroru maliyyələşdirən, yaşadan qüvvələrin ifşası öndə gəlirdi. Prezident İlham Əliyevin dediyi kimi: ***“Biz 613 insanın, onlardan 60-dan çox uşağın və 100-dən artıq qadının ermənilər tərəfindən qətlə yetirildiyi Xocalı soyqırımını yaddan çıxarmayacağıq... Düzdür, bu gün Azərbaycan qarşı tərəfə barışıq əlini uzadır, bölgədə daimi sülhü dəstəkləyir, ancaq eyni zamanda da erməni faşizminə qarşı daim hazırdır”.*** Ali Baş Komandan dəfələrlə qəti şəkildə bildirib ki, istənilən təxribatın qarşısı vaxtında alınacaq. II Qarabağ müharibəsi, lokal xarakterli antiterror tədbirləri göstərdi ki, respublikamızın hərbi gücü bölgədə daimi sülhü təmin etmək üçün yetərlidir. Ancaq bununla kifayətlənilmir, ordumuzun arsenalının müasir silah və texnikalarla təchizatı üçün ölkələrlə hərbi əməkdaşlıq əlaqələri gücləndirilir, müqavilələr imzalanır. Ümumiyyətlə, yaşadığımız dövr dövlətlərə hərbi cəhətdən güclü olmağı diktə edir. Təqdirəlayiq haldır ki, Azərbaycan uzaqgörən siyasətçi, Prezident İlham Əliyevin rəhbərliyi ilə bu prosesi uzun illərdir, həyata keçirir və nəticəsi də göz qabağındadır. Xalqımız “dəmir yumruq” ətrafında sıx birləşərək öz milli ləyaqəti uğrunda ədalət mübarizəsi aparıb, qətiyyət ortaya qoyaraq qalib gəlib, beynəlxalq hüququ bərpa edib. Günümüzün reallığıdır ki, ədalət hədiyyə edilmir, o çox hallarda hərbi güc, qətiyyət sayəsində qazanılır. Əks təqdirdə beynəlxalq hüquq işləmir, təşkilatların qərarları, qətnamələri elə kağız üzərində qalır. Necə ki Azərbaycan üçün 27 il bu belə oldu. Forumda çıxışı zamanı qalib ölkə başçısının da dediyi kimi: ***“Mübarizəmiz ədalət, beynəlxalq hüquq və ləyaqətimiz üçün mübarizə idi. BMT-nin Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalan qətnamələrini icra etdik. Əgər torpağımızı güclə azad etməsəydik, onlar növbəti 27 il də kağız üzərində qalardı. Burada biz mühüm meyara gəlib çıxırıq ki, bəzən sülhə nail olmaq və ədaləti bərpa etmək üçün siz gücdən istifadə etməlisiniz. Bu gün biz bunu görürük”.***

**Nail ƏSGƏROV**

# Azərbaycan enerji təchizatı baxımından Şimali Makedoniya üçün vacib tərəfdaşdır



## Azərbaycanla Şimali Makedoniya arasında iqtisadi əməkdaşlıq güclənəcək

"Şimali Makedoniya Azərbaycanın enerji sahəsində son dövrlərdə əməkdaşlıq əlaqələri qurduğu Avropa ölkələrindən biridir. Ötən ilin sonlarından etibarən bu respublikaya Azərbaycan qazının nəqlinə başlanılıb və bu prosesin gələcəkdə də davam etdirilməsi planlaşdırılır. Şimali Makedoniya Prezidenti Qordana Silyanovska-Davkovanın ölkəmizə rəsmi səfəri çərçivəsində keçirilən təkbətək görüşün ardından mətbuata verilən bəyanatlarda hər iki lider iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi ilə bağlı mühüm mesajlar səsləndirmişdir".

Bu fikirləri "Şərq qapısı" qəzetinə açıqlamasında ***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevinc Həsənova*** bildirib.

Deputat qeyd edib ki, Azərbaycan hər zaman inkişaf etməkdə olan kiçik dövlətlərin haqlarını ən yüksək səviyyədə müdafiə edib. Ötən il Bakıda keçirilən COP29 tədbiri də bu baxımdan nümunəvi hesab oluna bilər. Həmin konfrans Şimali Makedoniya ilə əlaqələrdə yeni mərhələnin başlanğıcını qoyub. COP29 çərçivəsində Prezident İlham Əliyevin dəvəti əsasında xanım Qordana Silyanovska-Davkovanın ikinci dəfə ölkəmizə səfəri yeni əməkdaşlıq imkanlarının formalaşması baxımından perspektivlər açıb. Liderlər siyasi əlaqələrin yüksək səviyyədə olduğunu vurğulamaqla yanaşı, iqtisadi münasibətlərin daha da dərinləşdirilməsinin zəruriliyini qeyd ediblər.

"Azərbaycanla Şimali Makedoniya arasındakı münasibətlər təkcə enerji sahəsi ilə məhdudlaşmır, eyni zamanda mədəni və humanitar sahələri də əhatə edir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, əvvəlki səfəri çərçivəsində xanım Qordana Silyanovska-Davkova Azərbaycanın mədəni həyatı ilə tanış olmuşdu və budəfəki səfər də bu baxımdan mühüm məqamlarla yadda qalacaq. Xüsusilə Şimali Makedoniya liderinin "Dünya düzəninin yenidən düşünülməsi: çağırışların fürsətə çevrilməsi" mövzusunda keçiriləcək XII Qlobal Bakı Forumunda iştirakı ikitərəfli dialoqların genişlənməsinə və əlaqələrimizin daha da möhkəmlənməsinə töhfə verəcək", – deyə Sevinc Həsənova əlavə edib.

*(əvvəli 1-ci səhifədə)*

Məhz martın 11-də mətbuata bəyanatında Prezident İlham Əliyev də diqqəti ilk olaraq COP29-a çəkdi və bundan sonra Azərbaycanla Şimali Makedoniya arasında ikitərəfli münasibətlər zəminində fəallığın artırılacağını vurğuladı: ***"Bu Sizin Azərbaycana ikinci səfərinizdir. Mən çox şadam ki, Siz COP29 konfransında da fəal iştirak etmisiniz və konfransın uğurla keçirilməsinə öz töhfənizi vermisiniz. Noyabr ayında görüş əsnasında mən Sizi Azərbaycana rəsmi səfərə dəvət etmişəm və şadam ki, mənim dəvətimi qəbul edib bu gün rəsmi səfərdəsiniz. Biz ikitərəfli münasibətlərimizin inkişafı üçün fəal iş aparırıq. Şadam ki, ölkələrimiz arasında siyasi dialoq dinamik xarakter alır. Bizim xanım Prezidentlə ikinci görüşümüz qısa müddət ərzində bunun əyani sübutudur. Siyasi əlaqələrimizin inkişafı üçün əlavə tədbirlər görülməlidir, müvafiq dövlət qurumları təbii olaraq sıx təmasda olmalıdırlar".***

Azərbaycanla Avropa ölkələrini, o cümlədən də Şimali Makedoniyanı yaxınlaşdıran, ikitərəfli münasibətləri gücləndirən ən mühüm nüans əvvəldə də qeyd etdiyimiz kimi, respublikamızın təşəbbüsü ilə reallaşan iri enerji layihələridir. Bəli, Azərbaycan bu gün 10 Avropa ölkəsinə qaz ixrac edir ki, onlardan 8-i Avropa İttifaqının üzvüdür. Təqdirəlayiq hal ondadır ki, Avropa ölkələri hər zaman birgə əməkdaşlıqda olduqca maraqlı tərəf kimi çıxış edir, müxtəlif siyasi platformalarda, Davos forumunda və bir sıra siyasi, iqtisadi görüşlərdə enerji hasilatını artırmaq üçün təşəbbüslər irəli sürürlər. 2022-ci ilin iyulun 18-də Azərbaycan və Avropa Komissiyası arasında "Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması da bu sahədə irəliləyişin əldə edilməsində hüquqi baza rolunu oynayıb. Azərbaycan tərəfindən təşəbbüslərin dəstəklənməsi nəticəsində yeni interkonnektorların da qoşulması ilə ötən iki-üç ildə qaz ixracatında əhəmiyyətli artım göstəricisinə nail olunub.

Belə ki, 2021-ci ildə Azərbaycan Avropaya 8 milyard kubmetr qaz ixrac etmişdirsə, bu rəqəm 2022-ci ildə 11,4 milyard, 2023-cü ildə, təxminən, 12 milyard, 2024-cü ildə isə 12,9 milyard kubmetr təşkil edib. Ümumilikdə, 2024-cü ildə ölkəmiz xarici bazarlara 25 milyard kubmetr qaz ötürüb. Ötən ilin sonlarından artıq Şimali Makedoniya da respublikamızın mühüm enerji layihəsindən faydalanmağa başlayıb. Belə ki, 2024-cü ilin noyabrın 14-də bu ölkənin paytaxtı Skopye şəhərində Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) və "ESM" Səhmdar Cəmiyyəti arasında enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə dair Anlaşma Memorandumu imzalanıb. Bu sənəd tərəflər arasında Şimali Makedoniyanın enerji təhlükəsizliyinin gücləndirilməsi və təbii qaz mənbələrinin şaxələndirilməsi üzrə uzunmüddətli əməkdaşlığı nəzərdə tutur. Bununla da Şimali Makedoniya Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Xorvatiya, Serbiya və Sloveniya ilə birlikdə Azərbaycan qazını alan on birinci ölkə olub. Əldə olunan razılaşmaya əsasən bir ay sonra, daha dəqiq desək, ötən il dekabrın 1-də Slovakiya da bu sıraya qoşulub. Və beləliklə, Azərbaycan hazırda dünya üzrə 12 ölkənin qaz təchizatını təmin edir.

Prezident İlham Əliyev martın 11-də mətbuata bəyanatında da Avropaya qaz ixracı məsələsinə xüsusi toxundu və gələcəkdə Şimali Makedoniyaya mavi yanacaq təchizatının artırıla biləcəyini də diqqətə çatdırdı. Sitat: ***"Son ayların müsbət əlaməti də ondan ibarətdir ki, iki ölkə energetika sahəsində əməkdaşlığa başlamışdır. Azərbaycan qazı artıq Şimali Makedoniyanın bazarına çatdırılmışdır və bu, keçən ilin sonlarında baş verdi, bu il artıq müntəzəm olaraq Azərbaycan sizin bazarınızı təbii qazla təmin edəcəkdir. Gələcəkdə biz lazım olan həcmdə qaz təchizatını artıra bilərik. Çünki biz bu gün yeni qaz yataqlarının istismara verilməsi istiqamətində fəal iş aparırıq".*** Xanım Qordana Silyanovska-Davkova isə, öz növbəsində, Azərbaycanın nəinki beynəlxalq geosiyasi səhnədə seçildiyini, o cümlədən Şimali Makedoniya kimi kiçik ölkələrin ehtiyac duyduğu təbii qaz, bərpa olunan enerji baxımından çox maraqlı tərəfdaşa çevrildiyini vurğuladı.

Ümumilikdə, martın 11-də Azərbaycan və Şimali Makedoniya liderlərinin mətbuata verdiyi bəyanatlardan aydın oldu ki, hər iki ölkə həm iqtisadi, həm də mədəni sahədə əməkdaşlığı genişləndirməkdə maraqlıdır. Şübhəsiz ki, səfər çərçivəsində xanım Prezidentin "Dünya düzəninin yenidən düşünülməsi: çağırışların fürsətə çevrilməsi" ("Rethinking World Order: Turning Challenges Into Opportunities") mövzusunda keçiriləcək XII Qlobal Bakı Forumunda iştirakı da dialoqların artırılmasına, əlaqələrimizin güclənməsinə təkan verəcək. Dövlət başçımız da Şimali Makedoniya liderinin günümüzün mühüm aktual məsələsinə həsr olunan forumda iştirakını yüksək qiymətləndirdi, humanitar sahədə birgə əməkdaşlığın vacibliyini vurğuladı: ***"Xalqlarımızın humanitar sahədə əməkdaşlığına da böyük ehtiyac var. Şadam ki, Siz, eyni zamanda XII Qlobal Bakı Forumunda iştirak edəcəksiniz. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən təşkil olunan bu Forum dünya miqyasında layiqli yerini tuta bilib. Əlbəttə ki, Sizin dəyərli fikirləriniz, tövsiyələriniz hamı üçün maraqlı olacaq".***

**✍ Nail ƏSGƏROV**

## Azərbaycan-Şimali Makedoniya əlaqələri yeni əməkdaşlıq mərhələsinə qədəm qoyur

"Azərbaycanla Şimali Makedoniya arasında dostluq və əməkdaşlıq münasibətləri inkişaf edir. Ölkələrimiz arasında siyasi dialoq güclənir, dövlət başçılarının görüşləri bu əlaqələrin dərinləşməsinə təkan verir. Şimali Makedoniya Prezidenti Qordana Silyanovska-Davkovanın rəsmi səfəri zamanı liderlərin verdiyi bəyanatlar əlaqələrin yeni mərhələyə keçdiyini göstərir".

Bu fikirləri "Şərq qapısı" qəzetinə açıqlamasında ***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Xəzəngül Orucova*** bildirib.

Deputat qeyd edib ki, xüsusilə enerji sahəsində əməkdaşlıq genişlənməkdədir. Azərbaycan qazı artıq Şimali Makedoniyaya çatdırılıb və bu proses davamlı olacaq. Və beləliklə, bu əməkdaşlıq həm də Avropanın enerji təhlükəsizliyi baxımından strateji əhəmiyyət daşıyır.

Xəzəngül Orucova əlavə edib ki, iki ölkə arasında iqtisadi əlaqələrin gücləndirilməsi və humanitar sahədə əməkdaşlığın inkişafı prioritet məsələlər sırasındadır. Azərbaycan, Şimali Makedoniya ilə münasibətlərin hərtərəfli inkişafına önəm verir və bu istiqamətdə fəaliyyətini davam etdirəcək.



# Azərbaycanın növbəti diplomatik nailiyyəti, mühüm idman hadisəsi – III MDB Oyunları

Azərbaycan dövlətinin apardığı uğurlu diplomatiya və balanslı siyasət nəticəsində ölkəmizə beynəlxalq ictimaiyyət tərəfindən göstərilən hörmət və etimad ilbəil daha da artır. Təqdirəlayiq məqamdır ki, respublikamız bu gün keyfiyyətli ixrac məhsulları ilə etibarlı ticarət tərəfdaşı, qitələri birləşdirməklə əvəzolunmaz nəqliyyat mərkəzi kimi tanınmaqla paralel, həm də dünya səviyyəli mötəbər tədbirlərə ev sahibliyi missiyasını uğurla yerinə yetirən unikal məkan kimi də şöhrət tapır. Məhz ötən ilin noyabr ayında Bakıda keçirilən COP29-un timsalında ölkəmiz bir daha öz nümunəvi təşkilatçılıq bacarıqlarını və yekunda qəbul edilən tarixi qərarlarla siyasi iradəsini ortaya qoydu. 2025-ci ildə isə Azərbaycan regionda sülhə, təhlükəsizliyə, sağlam rəqabətə xidmət edən növbəti missiyasını həyata keçirməyə, III MDB Oyunlarını uğurla reallaşdırmağa hazırlaşır.

***MDB-yə üzv respublikaların Azərbaycana rəğbətinin ifadəsi – idman paytaxtı Gəncə***

III MDB Oyunları sentyabrın 28-dən oktyabrın 8-dək 23 idman növü üzrə, "2025-ci ildə Müstəqil Dövlətlər Birliyinin idman paytaxtı" olan Gəncə və ölkəmizin digər 6 şəhərində keçiriləcək. Gəncədə 8, Mingəçevirdə 4, Qəbələdə 4, Şəkidə 3, Göygöldə 2, Yevlaxda 1 və Xankəndidə 1 idman növü üzrə yarışlar təşkil ediləcək. Üçüncü MDB Oyunlarında MDB ölkələrinin idman heyətləri ilə yanaşı, Azərbaycanın dəvəti əsasında digər bir sıra ölkələrdən olan, ümumilikdə, 7 min idmançının iştirakı gözlənilir. Müqayisə üçün qeyd etmək yerinə düşər ki, 2015-ci ilin Avropa Oyunlarında, təqribən, 5000-5500, 2017-ci ilin İslam Həmrəyliyi Oyunlarında isə 3000-dən çox idmançı mübarizə aparıb. Özlüyündə bu fərq Azərbaycan üçün III MDB Oyunlarına hazırlığın əvvəlkilərdən daha ciddi, daha böyük önəm daşıdığını göstərir.

Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv respublikaların ölkəmizə hörmət və rəğbətinin ifadəsi olan bu mötəbər tədbirin Azərbaycanda, xüsusilə də əsas yarışların Gəncədə təşkilinin arxasında həm də mühüm siyasi əhəmiyyət, idman nailiyyətləri, geniş təcrübə dayanır. İlk diqqətçəkən amil, sözsüz ki, illərdir, ölkəmizdə müasir infrastrukturun, o cümlədən də idman infrastrukturunun qurulması, stadionların tikilməsi və beləliklə də, mötəbər beynəlxalq tədbirlərə uğurlu ev sahibliyinin yerinə yetirilməsidir. Prezident İlham Əliyev ötən il dekabrın 24-də 2024-cü ilin idman yekunlarına həsr olunan mərasimdə də respublikamızın təşkilati məsələlərdəki öncüllüyünü vurğuladı, infrastruktur quruculuğu baxımından reallaşdırılan sanballı layihələrə diqqəti çəkdi. Sitat: ***"Hazırda bizim bölgələrimizdə 44 Olimpiya İdman Kompleksi fəaliyyət göstərir və bu idman komplekslərinin bundan sonra da inşası nəzərdə tutulur, müxtəlif bölgələrdə, o cümlədən Qarabağ bölgəsində. Bakı şəhərində ən müasir idman infrastrukturumuz vardır. Biz hələ, təxminən, 10 il bundan əvvəl Bakıda mötəbər Avropa Oyunlarını keçirmişdik. Ondan sonra İslam Həmrəyliyi Oyunlarını keçirmişdik və keçən ay Bakıda COP29 beynəlxalq iqlim konfransı da Olimpiya Stadionunun içində və onun ətrafında keçirilmişdir. Yəni burada da vaxtilə inşa etdiyimiz idman obyektinin – Olimpiya Stadionunun böyük rolu olmuşdur".***

***"Əminəm ki, bu Oyunların ev sahibi kimi Azərbaycan idmançıları, gənc idmançılar yaxşı nəticələr göstərəcəklər"***

Bəli, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu idman siyasətinin nəticəsidir ki, hazırda ölkəmizin ayrı-ayrı bölgələrində, ümumilikdə, 44 Olimpiya İdman Kompleksi, o cümlədən müxtəlif bölgələrdə, Bakıda, Qarabağda, Gəncədə, Naxçıvanda ən müasir idman infrastrukturu qurularaq gənclərin istifadəsinə verilib. Azərbaycanın ötən illərdə Avropa Oyunlarını, İslam Həmrəyliyi Oyunlarını yüksək səviyyədə təşkil etməsi məhz bu quruculuq siyasətinin uğur göstəriciləridir. Təqdirəlayiq haldır ki, idmançılarımız da yaradılan şəraitdən səmərəli istifadə edərək beynəlxalq arenalarda ölkə idmanının şərəfini layiqincə qoruyur, üçrəngli bayrağımızı zirvələrə ucaldır, Dövlət Himnimizi səsləndirirlər. Bu baxımdan 2024-cü il də Azərbaycan idmanı üçün uğurlu oldu, idmançılarımız beynəlxalq yarışlarda ölkəmizi ləyaqətlə təmsil etdi, 1700-ə yaxın medal qazanıldı.

Ötən il, həmçinin sayca 33-cü dəfə keçirilən, 16 gündə 329 dəst medalın öz sahibini tapdığı "Paris-2024" Yay Olimpiya Oyunlarını müstəqilliyinin bərpasının 33-cü ildönümündə respublikamız üçün ən uğurlu idman yarışlarından biri hesab etmək olar. 91 ölkənin idmançılarının fəxri kürsüyə çıxdığı olimpiadada Azərbaycan 2 qızıl, 2 gümüş və 3 bürünc medal qazanmaqla sıralamada Qazaxıstan, Polşa, Avstriya kimi iddialı komandaları arxada buraxıb 30-cu olmağı bacardı. Bütün bu uğur göstəriciləri belə deməyə əsas verir ki, gənclərimiz ötən illərdə qazandıqları müvəffəqiyyətlərin davamını III MDB Oyunlarında da gətirə biləcək. Ölkə başçısı da gənclərimizə güvənir, onların uğurlu nəticələr qazanacağına əmindir: ***"Əlbəttə ki, biz təbii olaraq bu Oyunlara da hazırlaşırıq. Əminəm ki, bu Oyunların ev sahibi kimi Azərbaycan idmançıları, gənc idmançılar yaxşı nəticələr göstərəcəklər".***



***Nizami yurdu MDB-nin idman paytaxtı missiyasını uğurla yerinə yetirəcək***

Azərbaycanın ikinci ən böyük şəhəri Gəncə "2025-ci ildə Müstəqil Dövlətlər Birliyinin idman paytaxtı" missiyasını uğurla yerinə yetirmək üçün bu gün dövlətimizin diqqəti, ayrılan maliyyə vəsaiti sayəsində başdan-başa yenilənir. Bu yenilik idman, səhiyyə, nəqliyyat, şəhər quruculuğu, tarixi abidələrin bərpası və digər istiqamətləri əhatə edir. Bütün infrastruktur proyektləri vahid konsepsiya əsasında reallaşdırılır, təşkilati məsələlər ölkə başçısının "III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında" Sərəncamına uyğun aid komitənin nəzarəti altında icra olunur.

İdman infrastrukturunun müasirləşdirilməsi barədə onu da xatırlatmaq yerinə düşər ki, ötən il Gəncədə ölkəmizin ən böyük Olimpiya İdman Kompleksi açıldı. Eyni zamanda dövlət başçısının 2023-cü il 6 oktyabr tarixli Sərəncamına əsasən Gəncə şəhər stadionunun yenidən qurulması işlərinin layihələndirilməsi və icrası üçün Prezidentin Ehtiyat Fondundan ilkin olaraq 1 milyon manat ayrılıb. Stadionun layihələndirilməsi artıq tamamlanıb. Yenidənqurma işləri çərçivəsində stadionun ərazisi genişləndiriləcək 10 hektara çatdırılacaq. UEFA-nın 4-cü kateqoriya standartlarına uyğun inşa ediləcək stadionun tamaşaçı tutumu layihə üzrə 15 min 464 yerlikdir. Eyni zamanda ötən dövrdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə şəhərdə milli-mənəvi dəyərlərin qorunması sahəsində böyük layihələr həyata keçirilib, o cümlədən xalqımızın mədəni irsinin dərindən öyrənilməsində müstəsna əhəmiyyətə malik tarixi abidələr bərpa edilib. Gələcəkdə Şah Abbas və Hüseyniyyə məscidlərində də təmir-bərpa işləri görüləcək. Ümumiyyətlə, şəhərdə bütün infrastruktur layihələri ciddi diqqət, nəzarət və peşəkar yanaşma sayəsində, keyfiyyət amili əsas götürülməklə dünya standartlarına uyğun reallaşdırılır. Məhz bu baxımdan Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyevanın martın 6-da Gəncə şəhərinə səfəri və görülən işlərlə tanış olmaları da bu qədim yurda onun mötəbər missiyasını müvəffəqiyyətlə yerinə yetirməsi yönündə diqqət və qayğının daha bir göstəricisidir.

Azərbaycanın 44 günlük Vətən müharibəsindən sonra Nizami yurdu Gəncənin "2025-ci ildə Müstəqil Dövlətlər Birliyinin idman paytaxtı" statusuna layiq görülməsi məhz bu baxımdan ölkəmiz üçün önəmli idman hadisəsi olmaqla bərabər həm də olduqca mühüm siyasi əhəmiyyət daşıyır. Bildiyimiz kimi, II Qarabağ müharibəsində düşmən qüvvələr respublikamızın ikinci ən böyük şəhərini xüsusi hədəfə aldılar, vandalizm aktı törətdilər. Gəncə 2020-ci il oktyabrın 4-ü, 5-i, 8-i, 11-i və 17-də Ermənistan silahlı qüvvələri tərəfindən müxtəlif təyinatlı "Toçka-U", "Smerç", "SCUD" və digər raket qurğularından endirilən zərbələrə məruz qaldı. Nəticədə, 26 mülki şəxs həlak oldu, 142 dinc sakin yaralandı. Və tarixi zəfərin 5-ci ildönümündə şəhəri bürüyən quruculuq tədbirlərində də bu amil mühüm diqqət mərkəzindədir. Belə ki, Ermənistan silahlı qüvvələrinin 2020-ci ildə Gəncə şəhərinə raket hücumları nəticəsində həlak olan dinc sakinlərin xatirəsini əbədiləşdirmək üçün hazırda Gəncə Memorial Kompleksi inşa olunur. Sözsüz ki, Azərbaycan dövləti bu mötəbər tədbirə Gəncənin ev sahibliyi etməsinə nail olmaqla dünya ictimaiyyətinin, eləcə də ölkəmizə üz tutan xarici qonaqların diqqətini əyani formada erməni faşizminə bir daha yönəltməklə respublikamızın haqlı mövqeyini ortaya qoyacaq, ədalət səsini ucaldacaq. Bu mənada, III MDB Oyunları çərçivəsində bir idman növü üzrə yarışların dövlət suverenliyimizin, ərazi bütövlüyümüzün rəmzlərindən sayılan Xankəndidə təşkilinin nəzərdə tutulması təsadüfi deyil, düşünülmüş siyasi gediş, diplomatik addımdır. Digər tərəfdən, mötəbər tədbir sayəsində dünyanın bir sıra ölkələrindən vətəndaşlar, idman həvəskarları ölkəmizə üz tutacaq ki, bu da tariximizin, mədəniyyətimizin, eyni zamanda turizm potensialımızın təbliğinə geniş imkanlar açacaq.

Əminliklə demək olar ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan Birinci Avropa Oyunlarına, İslam Həmrəyliyi Oyunlarına və COP29 kimi tədbirə yüksək səviyyədə ev sahibliyi etdiyi kimi, III MDB Oyunlarını da peşəkarlıqla və layiqincə keçirməyə müvəffəq olacaq. Bu mötəbər idman hadisəsi respublikamızın növbəti diplomatik nailiyyəti, idman uğuru kimi tarixə düşəcək.

**Nail ƏSGƏROV**

# Naxçıvanda şəhid ailələri və qazilər üçün iftar süfrəsi açılıb





Martın 7-də “Naxçıvan Saray”da müqəddəs Ramazan ayı münasibətilə şəhid ailələri üzvləri və qazilər üçün iftar süfrəsi açılıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət nümayəndələri, şəhid ailələri üzvləri və qazilər iştirak ediblər.

Əvvəlcə müstəqillik və torpaqların ərazi bütövlüyü uğrunda canlarından keçmiş dost və qardaş ölkələrimizin şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri səsləndirilib, müqəddəs “Qurani-Kərim”dən ayələr oxunub, dualar edilib.

Qeyd edək ki, iftar süfrəsi Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) və Türkiyə Cümhuriyyətinin Naxçıvan Muxtar Respublikasındakı Baş Konsulluğunun təşkilatçılığı ilə baş tutub.

# “Şərq qapısı” qəzetinin maddi-texniki bazası yenilənib, informasiya mərkəzi istifadəyə verilib








Martın 13-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəsmi mətbuat orqanı olan “Şərq qapısı” qəzetinin yeni avadanlıqlarının və informasiya mərkəzinin təqdimatı olub. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli qəzetin fəaliyyəti ilə tanış olub.

“Şərq qapısı” qəzetinin baş redaktoru Sara Əzimova 104 illik tarixi olan mətbu orqanın müasir dövrün çağırışlarına uyğun fəaliyyət göstərməsi üçün həyata keçirilən yeniliklər barədə məlumat verib. Bildirilib ki, redaksiyanın maddi-texniki bazası gücləndirilib, bütün otaqlar ən son texnologiyaya əsaslanan avadanlıqlarla – kompüterlər, printerlər, yaddaş qurğuları və fotoaparatlarla təchiz edilib, informasiya mərkəzi yaradılıb, jurnalistlərin daha səmərəli fəaliyyəti təmin edilib, arxiv işi təkmilləşdirilib.

Qeyd olunub ki, ölkəmizdə və muxtar respublikada baş verən ictimai-siyasi hadisələrin geniş oxucu auditoriyasına çatdırılması, təhlili və analitik materialların hazırlanması sahəsində mütəmadi iş aparan əməkdaşlar, eyni zamanda sosial media platformalarında da informasiya təminatını günün tələblərinə uyğun şəkildə həyata keçirirlər.

Qəzetin əməkdaşları Gülcamal Tahirova və Rafiq Təhməzov yaradılmış müasir iş şəraitindən danışıblar.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli “Şərq qapısı” qəzetinin fəaliyyətini yüksək qiymətləndirib. O bildirib ki, 104 illik tarixi olan bu mətbu orqan Azərbaycan jurnalistikasının inkişafına töhfə verməklə yanaşı, muxtar respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatının operativ işıqlandırılmasında mühüm rol oynayır.

“Şərq qapısı” qəzeti təkcə ənənəvi qəzetçilik prinsiplərini qoruyub saxlamır, eyni zamanda müasir media tendensiyalarına uyğun inkişaf edir. Qəzetin sosial media platformalarında aktiv fəaliyyəti, analitik və təhlili yazıları, videoçarxları Naxçıvanın informasiya məkanında mühüm yer tutur. Redaksiya heyətinin peşəkarlığı, jurnalistlərin operativ və dəqiq informasiya yaymaq bacarığı, eləcə də yaradılmış müasir şərait bu mətbu orqanın davamlı inkişafına xidmət edir”, – deyə Fuad Nəcəfli vurğulayıb.

Səlahiyyətli nümayəndə əlavə edib ki, Azərbaycan mətbuatının 150 illik yubileyi ərəfəsində “Şərq qapısı” qəzetinin maddi-texniki imkanlarının genişləndirilməsi, jurnalistlərin peşəkar fəaliyyətinin dəstəklənməsi dövlətin media sahəsinə göstərdiyi diqqətin bariz nümunəsidir.

# Sədərək rayonunda suvarma suyu ilə bağlı problem həll olunur





Martın 14-də “Sədərək” firması tərəfindən Sədərək rayonunda həyətyanı sahələrin suvarma suyuna olan tələbatın ödənilməsi məqsədilə qazılan 6 yeni subartezian quyusu istifadəyə verilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli iştirak edib, görülən işlərlə tanış olub.

Sonra rayon sakinləri ilə görüşən səlahiyyətli nümayəndə sakinləri əlamətdar hadisə münasibətilə təbrik edib, subartezian quyularının istismara verilməsi prosesinin davamlı olacağını diqqətə çatdırıb. Vurğulanıb ki, rayonda uzun illərdir, içməli su və kanalizasiya sistemləri, yol infrastrukturu sahələrində olan problemlərin də gələn ilin mart ayına kimi həll olunması nəzərdə tutulub.

Sədərək rayon sakinləri Əkbər Kərimov və Nəcəf Fərzəliyev yaradılan şəraitə görə minnətdarlıq ediblər.

Qeyd edək ki, “Sədərək” firması tərəfindən rayonda həyətyanı sahələrin suvarma suyuna olan tələbatın tam ödənilməsi üçün, ümumilikdə, 30 subartezian quyusunun istismara verilməsi nəzərdə tutulur. Hazırda işlərin 50 faizi görülüb. Yeni istifadəyə verilən 6 subartezian quyusunun hər birinin su sərfiyyatı saatda 25 kubmetrdir. Tikinti-quruculuq işləri çərçivəsində diametri 200 millimetr borularla 7 kilometr, diametri 110 millimetr borularla isə 1,5 kilometr olmaqla, ümumilikdə, 8,5 kilometr suvarma su xətti də çəkilib. Layihə üzrə işlər davam etdirilir.

# Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən Sərəncam imzalanıb

“Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin Siyahısı”nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikasının Baş naziri 7 mart 2025-ci il tarixdə Sərəncam imzalayıb.

Sərəncama əsasən Tədbirlər Planının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin siyahısı təsdiq edilmişdir.

Sərəncamda aidiyyəti dövlət orqanları (qurumlar) nəzərdə tutulan siyahı üzrə görülmüş işlər barədə hər rübdən sonrakı ayın 10-dan gec olmayaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə məlumat təqdim etmələri müəyyən edilib.

Qeyd edək ki, Sərəncamın icrasına nəzarət Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının Humanitar məsələlər şöbəsinə həvalə edilib.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

# Fövqəladə Hallar Nazirliyinə yeni avtomobil və avadanlıqlar alınıb





Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq Sərəncamına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinə yeni avtomobil və avadanlıqlar alınıb.

Bununla əlaqədar Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında keçirilən təqdimat mərasimində Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri general-mayor Şahin Mirzəyev iştirak edib.

Fövqəladə Hallar Nazirliyinin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə alınan 2024-cü il istehsalı olan 5 ədəd “Hyundai” markalı, 12 ədəd “Lada” markalı və 6 ədəd “Jac” markalı müasir avtomobillər haqqında məlumat verilərək bildirilib ki, müasir interyerə malik avtomobillərin hər biri ən yeni rəqəmsal sistemlə təsis olunub. Bu avtomobillər yüksək manevr imkanları və müasir təchizatı ilə xidmətin operativ təşkilinə hərtərəfli şərait yaradacaq. Yeni avadanlıqlar fövqəladə hallar zamanı vətəndaşların təhlükəsizliyinin daha yüksək səviyyədə təmin olunmasına töhfə verəcək.

Həmçinin təbii fəlakətlər və digər fövqəladə hallar zamanı əhalinin təhlükəsiz şəraitdə yerləşdirilməsini təmin etmək məqsədilə 500 ədəd 5 nəfərlik çadır, eləcə də 2000 ədəd çarpayı, 1600 ədəd oturacaq, 400 ədəd masa, hər birindən 2000 ədəd olmaqla adyal, yastıq və dolabça da alınıb.

Son illərdə ölkəmizdə fövqəladə hallar orqanlarının fəaliyyətinin yüksək səviyyədə təmin edilməsi, fövqəladə halların qarşısının alınması, nəticələrinin minimuma endirilməsi və operativ müdaxilənin həyata keçirilməsi istiqamətində mühüm addımlar atılır.

Prezident cənab İlham Əliyevin diqqət və qayğısı ilə bu gün muxtar respublikada da əhalinin və ərazilərin fövqəladə hallardan qorunması sahəsində məqsədyönlü tədbirlər reallaşdırılır, mütəmadi olaraq Fövqəladə Hallar Nazirliyi yeni xidməti avtomobillərlə və texniki vasitələrlə təmin olunur, maddi-texniki bazası gücləndirilir.

# Konstitusiya və Suverenlik İli: Azərbaycanın gələcəyinə doğru addımlar

*İnsan üçün azadlıqdan, dövlət üçün isə müstəqillikdən dəyərli heç nə yoxdur. Müstəqil dövlətin azad vətəndaşı olmaq ən böyük xoşbəxtlikdir. Xalqımıza bəxş olunan bu xoşbəxtliyin müəllifi tariximizin Ümummilli Lideri Heydər Əliyevdir.*

*Azərbaycan xalqının tarixində dövlət müstəqilliyi və suverenlik daim yüksək prioritetə sahib olmuş və bu ideallar uğrunda əsrlərboyu mübarizə aparılmışdır. Xalqımız tarixin keşməkeşli dövrlərində müxtəlif çətinliklərlə, xarici müdaxilələrlə qarşılaşmış, ancaq heç vaxt milli kimliyini və mübarizə ruhunu itirməmişdir. Əksinə, bu çətinliklər xalqımızın daha da güclənməsinə, milli ideallarına sadiq qalmasına səbəb olmuşdur. Hələ sovetlər zamanı milli kimliyimizin qorunmasında, "vahid sovet xalqı" adlı ideologiyada Azərbaycan xalqını assimilyasiya olmaqdan qoruyan dahi şəxsiyyət Heydər Əliyev, bu mənada, milli özünüdərkimizin ali istinad zirvəsidir. XX əsrin sonunda müstəqilliyimizin bərpası ilə Azərbaycan xalqı öz tarixi arzularını reallaşdırmağa nail olmuş, yeni bir dövrün əsası qoyulmuşdur. Bu dövrün ən mühüm hadisələrindən biri isə 1991-ci il oktyabrın 18-də qəbul edilən "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı olmuşdur.*



**Faiq SƏFƏROV**
***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri, prokurorluğun fəxri işçisi***

***Müstəqilliyin bərpası və Azərbaycan Konstitusiyasının əhəmiyyəti***

1991-ci ildə Azərbaycan sovet ittifaqından ayrılaraq özünü müstəqil dövlət elan etdikdən sonra qarşıya bir sıra çətin və mürəkkəb məsələlər çıxmışdır. Bu məsələlərdən ən önəmlisi isə yeni bir Konstitusiyanın qəbul edilməsi idi. İlk mərhələdə müstəqilliyin təmin edilməsi üçün müvafiq hüquqi və siyasi tədbirlər görülmüş, lakin 1991-1993-cü illərdəki siyasi və idarəetmə böhranı ölkənin daxili vəziyyətini çətinləşdirmişdir. Bu dövr həm də ölkə daxilindəki təlatümlərin və idarəetmə sistemindəki boşluqların ciddi problemlərə yol açmasına səbəb olmuşdur. Bu halda dövlətin gələcəyinə dair böyük suallar yaranmış, hakimiyyətin zəifliyi səbəbindən vətəndaşların hüquqlarının qorunması və ölkənin təhlükəsizliyi ciddi təhdid altında qalmışdır.

1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Ümummilli Lider Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin qorunması və sabitliyin təmin edilməsi istiqamətində mühüm addımlar atmışdır. Ulu Öndər müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasını Xalq Cümhuriyyətinin nakam taleyini yaşamağa imkan verməmiş, özünün müdrik siyasəti və dəmir iradəsi ilə bu müstəqilliyi qoruyub saxlamışdır. Ümummilli Liderin böyük inamla söylədiyi bu fikirlər ölkəmizin gələcək inkişafına hər kəsin qəlbində böyük ümidlər yaratmışdır: ***"Ona da əmin ola bilərsiniz ki, Azərbaycan dövlətinin, Prezidentinin apardığı siyasət və həyata keçirdiyi tədbirlər Azərbaycanın dövlət müstəqilliyini günü-gündən möhkəmləndirir və yüksəklərə qaldırır. Azərbaycanın dövlət başçısı kimi mən deyirəm, bilin, bundan sonra Azərbaycan heç kəsdən asılı, heç kəsin vassalı olmayacaqdır. Ancaq özü öz taleyini hər gün həll edəcək və öz gələcəyini müəyyənləşdirəcəkdir. Azərbaycan müstəqil, sərbəst qalacaqdır".***

Ulu Öndərin təşəbbüsü ilə 12 may 1994-cü ildə Birinci Qarabağ müharibəsi zamanı imzalanan atəşkəs sazişi – Bişkek protokolu Milli Ordu quruculuğuna, eyni zamanda müstəqilliyimizin inkişafına geniş imkanlar açmışdır.

Qeyd edək ki, XX əsrin son onilliyində Azərbaycan xalqı ikinci dəfə öz müstəqilliyini "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" 18 oktyabr 1991-ci il tarixli Konstitusiya Aktı ilə bərpa etməyə nail olmuşdur. Amma Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul edilməsinə baxmayaraq, Konstitusiya Aktında Azərbaycan Respublikası vətəndaşlarının real hüquq və vəzifələri, dövlətimizin məram və məqsədləri tam əks olunmamışdı. Belə bir vəziyyətdə ölkədə Konstitusiya boşluğu açıq-aydın görünürdü. Bu tarixi zərurət nəzərə alınaraq Azərbaycan Respublikası Milli Məclisinin 2 may 1995-ci il tarixli Qərarı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Sədrliyi ilə 33 nəfərdən ibarət Konstitusiya komissiyası yaradıldı. Konstitusiya komissiyasının sədri, Ulu Öndər Heydər Əliyev yeni, milli Konstitusiyanı, son dərəcə, mükəmməl bir sənəd kimi hazırlamağı tövsiyə edərək deyirdi: ***"Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun".***

Beləliklə, dahi şəxsiyyətin rəhbərliyi altında 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının ilk milli Konstitusiyası ölkəmizin hüquqi quruluşunun əsasını qoymuş, yeni dövlətin gələcək inkişafına təkan vermişdir. Bu Konstitusiya yalnız müstəqilliyi və suverenliyi təmin etməklə qalmamış, həm də ölkənin hüquqi, siyasi və sosial strukturlarını möhkəmləndirən mühüm bir qanunverici sənəd olmuşdur. Müstəqilliyimizin əsas atributu olan Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi Azərbaycanın dövlət və hüquq tarixində xüsusi yer tutan mühüm hadisələrdən biridir. Ümumxalq səsverməsi yolu ilə ilk milli Konstitusiyanın qəbul edilməsi ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi olaraq təsbit edirdi.

Ümummilli Liderimiz qeyd edirdi: ***"Bizim Konstitusiyamız xalqın Konstitusiyasıdır – hər bir vətəndaşın Konstitusiyasıdır. Bizim Konstitusiyamız Azərbaycanın gələcək perspektivlərini müyyən edibdir və biz o perspektivlər yolu ilə gedirik, bundan sonra da gedəcəyik".*** Konstitusiyamızda Azərbaycan dövlətinin əsasları, vətəndaşların əsas hüquq və azadlıqları ilə yanaşı, vətəndaşların əsas vəzifələri də, yəni konstitusion vəzifələrimiz də öz əksini tapmışdır.Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək: ***"Bu gün qarşımızda duran əsas vəzifələrdən biri Konstitusiyamızın təbliği, onun əsas prinsip və müddəalarının dərindən öyrənilməsi və hər bir vətəndaşın yaşayış normasına çevrilməsidir".***

Həyat daima inkişafdadır, lakin milli Konstitusiyamızın təməl prinsipləri dəyişməzdir. Ulu Öndər Heydər Əliyevin ***"Konstitusiyanı öyrənmək lazımdır, Konstitusiyanı dərk etmək lazımdır, Konstitusiyanın maddələrini, xüsusən vətəndaşların vəzifələrinə, vətəndaşların hüquqlarına aid olan maddələrini vətəndaş bilməlidir və ona riayət etməlidir"*** sözləri hər birimizin başlıca fəaliyyət istiqaməti olmalıdır.

***Ermənistanın işğalçı siyasəti və Azərbaycanın ərazi bütövlüyü***

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra qarşılaşdığımız ən böyük çətinliklərdən biri də Ermənistanın işğalçı siyasəti olmuşdur. Ermənistanın Azərbaycana qarşı başladığı təcavüz nəticəsində ölkə ərazisinin 20 faizi, o cümlədən Qarabağ bölgəsi 30 il müddətində işğal altında qalmışdır. Bu vəziyyət Azərbaycan dövlətinin suverenliyinin bu ərazilərdə tətbiqinə imkan verməmiş, xalqımızın ərazi bütövlüyü ideyasını qorumaq və bu torpaqları geri qaytarmaq istiqamətindəki mübarizəsini daha da gücləndirmişdir. İşğal altındakı torpaqların geri alınması yalnız hərbi müstəvidə deyil, həm də diplomatik, hüquqi və sosial sahələrdə Azərbaycanın əsas hədəfi olmuşdur. Bu həm də ölkəmizin xarici siyasətinin əsasını təşkil etmiş, Azərbaycanın beynəlxalq müstəvidə hüquqlarını müdafiə etməsi üçün vacib addımların atılmasına səbəb olmuşdur.

***Vətən müharibəsi və ərazi bütövlüyünün bərpası***

Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün bərpası yolundakı ən mühüm mərhələ 2020-ci ilin sentyabr ayında Vətən müharibəsi ilə başlandı. Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycan Silahlı Qüvvələri ərazilərini azad etmək və torpaqlarını geri qaytarmaq üçün hərbi əməliyyatlara başladı. Bu müharibə yalnız Azərbaycan xalqının torpaq uğrunda apardığı mübarizə deyil, həm də Azərbaycanın dövlət müstəqilliyi və suverenliyinin qorunması uğrunda böyük bir mübarizə idi. Müharibə nəticəsində Azərbaycanın işğal altındakı torpaqları düşmən tapdağından azad olundu. Beləliklə, həm də Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsinin bütün ərazilərdə bərqərar olmasını təmin etdi. 2023-cü ildə həyata keçirilən uğurlu antiterror əməliyyatı ilə Azərbaycanın suverenliyi bu ərazilərdə tam şəkildə bərpa edildi. Xankəndi şəhərində Azərbaycan Bayrağının ucaldılması ilə dövlət suverenliyimiz tam bərqərar oldu.

Ölkə başçısı cənab İlham Əliyevin 2024-cü il sentyabrın 19-da "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" Sərəncam imzalaması da tarixboyu öz xüsusi əhəmiyyəti ilə seçiləcək. Azərbaycan dövlətinin, xalqımızın tarixində ən parlaq səhifələrdən biri olan sentyabrın 20-si Sərəncama əsasən hər il ölkəmizdə "Dövlət Suverenliyi Günü" kimi qeyd edilir.

***2025-ci il: "Konstitusiya və Suverenlik İli"***

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilib. Bu Sərəncam Azərbaycan xalqının dövlət müstəqilliyi və suverenliyi uğrunda apardığı mübarizənin əhəmiyyətini vurğulayan mühüm bir addım oldu. 2025-ci il həm Azərbaycanın Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümünü, həm də Vətən müharibəsindəki qələbənin 5-ci ildönümünü qeyd etmək üçün əlamətdar bir il olacaq. Bu istiqamətdə keçiriləcək tədbirlər Azərbaycanın suverenliyi və ərazi bütövlüyü məsələlərinin daha da güclənməsinə, ölkəmizin gələcək inkişafına yönəlik mühüm bir yol xəritəsi olacaqdır.

"Konstitusiya və Suverenlik İli" Azərbaycanın dövlətçilik tarixində yeni bir mərhələnin başlanğıcı olmaqla, həmçinin Azərbaycanın beynəlxalq arenada daha güclü mövqeyə sahib olduğunu və öz suveren hüquqlarını qorumaq istiqamətində prinsipial mövqe tutduğunu bir daha nümayiş etdirir. Atılacaq məqsədyönlü addımlar nəticəsində Azərbaycan yeni hədəflərinə də çatacaq. Eyni zamanda ölkəmiz müstəqil və suveren dövlət olaraq dünya ölkələri ilə qarşılıqlı əməkdaşlıq və dialoq şəraitində bir çox strateji hədəflərə doğru inamla irəliləyəcəkdir. Azərbaycan xalqının güclü iradəsi və dövlət rəhbərinin düzgün və qətiyyətli siyasəti bunu inamla söyləməyə əsas verir.

## Naxçıvanda ilk dəfə olaraq aqrar sığorta eksperti təlimləri başlanıb

Azərbaycanda dövlət dəstəyi ilə təqdim edilən aqrar sığorta mexanizmi Aqrar Sığorta Fondu tərəfindən Naxçıvan Muxtar Respublikasında da tətbiq edilir.

İlk dəfə olaraq Aqrar Sığorta Fondu tərəfindən Naxçıvanda müstəqil aqrar sığorta eksperti olmaq istəyən mütəxəssislər üçün təlimlərə start verilib.

Xatırladaq ki, müstəqil aqrar sığorta ekspertləri aqrar sığorta mexanizminin işində mühüm yer tutur. Ekspertlər sığortalanmaq üçün müraciət etmiş təsərrüfatlara baxış keçirir, onların sığortaya yararlı olub-olmaması haqqında rəy verir. Eləcə də aqrar sığorta ekspertləri hadisə baş verən əkin sahələrinə və təsər-



rüfatlara baxış keçirərək hadisəni araşdırır, onların səbəbini müəyyən edir və dəymiş zərəri hesablayır.

Təsərrüfatların sığortalanması və hadisə baş verdikdə dəymiş zərərin ödənişi aqrar sığorta ekspertinin rəyi əsasında həyata keçirilir. Aqrar sığorta eksperti xidməti ödənişlidir və Aqrar Sığorta Fondu tərəfindən bu şəxslərə xidmət haqqı, yolpulu və hotel xərcləri ödənilir. Nəticədə, aqrar sığorta ekspertləri kifayət qədər yüksək gəlir əldə edirlər.

Naxçıvan Muxtar Respublikasında aqrar sığorta mexanizminin fəaliyyətinin təmin edilməsi üçün yerli aqrar sığorta ekspertlərinin hazırlanmasına başlanılıb.

Ekspert təlimləri Aqrar Sığorta Fondunun mütəxəssisləri tərəfindən həyata keçirilir. Burada ekspert olmaq istəyən namizədlərə zərərin hesablanması, təsərrüfatların sığortaya yararlı olub-olmamasının müəyyən edilməsi, sığorta hadisələrinin araşdırılması, bu zaman diqqət yetirilməli olan məqamlar, ekspert rəyinin hazırlanması və sair mövzularda biliklər verilir.

Qeyd edək ki, təlimdən keçən namizədlər Dövlət İmtahan Mərkəzinin (DİM) təşkil etdiyi imtahana buraxılacaq. İmtahandan keçmiş namizədlərə aqrar sığorta eksperti sertifikatı verilir və onlar Azərbaycan Mərkəzi Bankındakı müvafiq reyestrə daxil edilirlər.

## Naxçıvan Sağlamlıq Mərkəzində geniş profilli laborator müayinələr aparılır



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilən yeniliklər çərçivəsində "Naxçıvan Sağlamlıq Mərkəzi" publik hüquqi şəxsin Laboratoriya şöbəsi müasirtipli xidmətin göstərilməsi məqsədilə yenidən qurulub.

Laboratoriyanın infrastrukturu, avadanlıqları və xidmət keyfiyyəti tamamilə təkmilləşdirilib. Hazırda şöbə gün ərzində 350 vətəndaşa laborator xidmət göstərmək gücünə malikdir. Laboratoriyada 9 müayinə üzrə 86 adda analiz verilməsi mümkündür. Burada 4 həkim laborant və 6 orta tibb işçisi xidmətin təşkil olunmasında fəaliyyət göstərir.

Cari il martın 3-dən Naxçıvan Muxtar Respublika Xəstəxanası tərəfindən də mərkəzə analizlərin verilməsi üçün göndərişlərin verilməsinə başlanılıb. Martın 3-ü və 4-də mərkəzin laboratoriyasında 178 nəfərə xidmət göstərilib. Laboratoriyada hazırda 2 ədəd COBAS-C-311-biokimyəvi analizator mövcuddur. Cihazın 40-a qədər biokimyəvi göstərici yoxlamaq imkanı var. Bunlardan qaraciyər, böyrək sınaqları, lipid paneli, mikroelementlər, protein paneli, Lipaza, PAM, LDH, CK, Mg, Fe, CKMB, HbA1c, fermentlər, revmatik sınaqları, transferrin təyinini, immunoqlobulin A, E, G, Mi və s. müayinə olunur. Bundan başqa, 2 ədəd Cobas e 411 analizatoru istifadə edilir.

İmmunokimyəvi analiz tam avtomatlaşdırılmış ECL (ElectroChemiLuminescence) texnologiyası vasitəsilə aparılır.

Laboratoriyada qalxanabənzər vəzi, kardioloji, hamiləlik, onkotestlər, hormon, atopiyalar və digər testlər aparıla bilir. Test prosesində Sysmex CS 2500 və Sysmex CA600 koaquloqram cihazları istifadə edilir. Sysmex XP300 hematoloji analizatorunda qanın 20 parametri və Sysmex XN350 hematoloji analizatorunda 26 parametri təyin edilir. Bundan başqa, laboratoriyada müasir mikroskoplar, həmçinin yardımçı avadanlıqlar olan sentrifuqalar, mikserlər, su hamamları, termostatlar, quruducu şkaflar, soyuducular və laminar şkaflar vardır.

Qeyd edək ki, Naxçıvan Sağlamlıq Mərkəzinin laboratoriyasında göstərilən xidmətlər icbari tibbi sığortanın xidmətlər zərfi çərçivəsində vətəndaşlara ödənişsiz göstərilir.

# Naxçıvanı “Təbriz”dən seyr edin...



İş otağımızın pəncərəsindən gözəl bir mənzərə açılır. Bu “Təbriz” mehmanxanasıdır. Neçə illərdir ki, qarşısından ötüb keçdiyim möhtəşəm binaya dəfələrlə getmək istəmişəm. Nəhayət, bu yaxınlarda mehmanxanada oldum. 13-cü mərtəbəyə qalxıb qoca Şərqin qapısını, günü-gündən gözəlliyə qovuşan paytaxt şəhərimizi seyr etdim. Masamın üstündə dəftər-qələmimdən başqa armudu stəkanda Ordubad limonu salınmış pürrəngi çay da var. Buradan paytaxt şəhərimizin füsunkar gözəlliyinə baxır, rəssam, kosmonavt Leonovun sözlərini xatırlayıram: “Dünyanın harasına gedirəmsə, orada kosmosdan Yer kürəsinin göründüyü rəngdə olan ərazini müəyyən etməyə çalışıram. Bu vaxta qədər həmin yeri tapa bilməmişdim. Buraya gələndə gördüm ki, kosmosdan baxanda Yer kürəsi Naxçıvanın rəngində görünür. Yer kürəsi Naxçıvanın şaftalı çiçəyinə bənzəyən çəhrayı rəngdədir”.

Otağın pəncərəsinə yaxınlaşır, uzaqdan xan Arazın həzin-həzin axdığını görürəm.

**Araz, Araz, can Araz,**
**Sultan Araz, xan Araz.**

Qış fəslinin soyuğundan çılpaqlaşan ağacların arasından şəhərimizin hüsnünə yaraşıq verən tarixi tikililərin sanki mənə səsləndiyini duyuram. Şərqdə qadın şərəfinə ilk dəfə ucaldılmış əzəmətli Möminə xatın türbəsini görürəm. Memar Əcəminin naxışları ilə bəzədilmiş bu əsrarəngiz türbə əsrlərdən boylanan qadın ləyaqətinə hörmətin ifadəsidir. Onun sol tərəfində isə XVIII əsrə aid olan Xan sarayı yerləşir. Saray Naxçıvan-Marağa memarlıq məktəbi üslubunda tikilmişdir. Bu möhtəşəm tarixi yadigar XX əsrin əvvəllərinə qədər Naxçıvan xanlarının yaşayış evi olmuşdur.

Müasirliklə keçmişin vəhdətini özündə ehtiva edən bir bina da diqqətimi çəkir. Bu gün muxtar respublikada keçirilən müxtəlif beynəlxalq və yerli tədbirlərə ev sahibliyi edən bu saray şəhərimizin ən gözəl ünvanlarından biridir. Yəqin ki, oxucularımız da söhbətin hansı ünvandan getdiyini hiss edir. Bu, müstəqil Azərbaycanımızın qurucusu və memarı Ulu Öndərimizin adını daşıyan Heydər Əliyev Sarayıdır. Diqqətimi daha bir məqam cəlb edir. Mehmanxananın sağ tərəfi boyu uzanan Heydər Əliyev prospektində və “Təbriz” küçəsində görünən insanlar, müxtəlif markalı avtomobillər qədim şəhərin qaynar həyatından soraq verir.

Mehmanxanadan paytaxt şəhərimizi seyr edərkən gözümüz daha bir ünvanda dayanır: Zəfər parkı. 30 il işğal altında qalan Qarabağ torpaqlarının Ali Baş Komandan cənab İlham Əliyevin iradəsi və rəşadətli ordumuzun şücaəti sayəsində azad olunmasının şərəfinə ucaldılmış bu park şəhər sakinlərinin qürur, sonsuz minnətdarlıq və ehtiramla ziyarət etdiyi müqəddəs məkanlardan biri, bugünkü gənclərimiz üçün örnək ziyarət yeridir.

Şəhərimizə gözəllik bəxş edən ehtişamlı qala divarları bizə şanlı keçmişimizi xatırladır. Bu isə “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinin divarlarıdır. El arasında “Köhnəqala” kimi tanınan bu tarixi yer vaxtilə şəhərin yağılardan müdafiəsi üçün tikilib. Son illər burada da yenidənqurma tədbirləri həyata keçirilib, kompleks naxçıvanlıların və buraya gələn qonaqların əyləncə və istirahət guşəsinə çevrilib.

Naxçıvanqalanın ətrafında isə firuzəyi günbəzləri və minarələri ilə göylərə ucalan Heydər məscidi dayanır. Bu məscid də son illərin quruculuq ərməğanlarından biri, naxçıvanlı və həm də qədim yurdumuza qonaq gələn dindarların üz tutduqları müqəddəs məkandır.

Firuzəyi rəngli günbəzlərin fonunda bir abidə də diqqətimi cəlb edir. Bu türbədə Nuh Peyğəmbərin dəfn edildiyinə inanılır. Dünya tufanı zamanı bu əraziyə gələn, bəşəriyyətin ikinci atası sayılan Nuh Peyğəmbərin gəmisi əfsanəvi Haçadağa toxunur. Bəhs etdiyim abidə Naxçıvan şəhərində Naxçıvanqala ərazisindəki arxeoloji qazıntılar zamanı aşkar edilib. Realist rəssam Bəhruz Kəngərlinin bu türbə ilə bağlı işlədiyi rəsm əsəri bu gün də öz dəyərini saxlayıb.

“Təbriz”in yaxınlığında isə daha bir inanc yeri olan Came məscidi yerləşir; 1918-ci il soyqırımlarında məscidin ermənilər tərəfindən müəyyən hissəsi top atəşi nəticəsində dağıdılsa da, bu gün artıq ikinci həyatını yaşayır; bu tarixi tikili həm də şəhərə öz görkəmi ilə yaraşıq verir.

Bir az da göz gəzdirdikdən sonra əbədi qardaşlığımızın simvollarından sayılan Kazım Qarabəkir Paşa məscidini görürəm. Qarabəkir Paşa 1918-1919-cu illərdə Naxçıvanın erməni qəsbkarlarından xilas edilməsində böyük mərdlik və şücaət göstərmişdir. Məhz onun şərəfinə də adını daşıyan bu tarixi tikili ucaldılmışdır.

Seyr etdiklərim bir anlığa mənə kiçik yaşlarımda gördüyüm Naxçıvanı yada salır. Uşaq hafizəmdə yaşayan ovaxtkı Naxçıvanla bugünkü Naxçıvanı heç müqayisə belə etmək olmaz. Hər addımı gözoxşayan qədim diyarımız bu gün ölkəmizin ən gözəl və sakit məkanlarından biridir. İnsanlarının səmimiyyəti və qonaqpərvərliyi buraya turist axınını da xeyli gücləndirib. Turistlərin maraq göstərdiyi məkanlar sırasında dini məkanlar da az deyil.

Budur, naxçıvanlıların dini inanclara ehtiramını ifadə edən daha bir nümunə – İmamzadə binası. Şəhərin cənub-qərb hissəsində yerləşən bu türbə XVIII əsrə aid tarix-memarlıq kompleksidir. İmamzadənin meydana gəlməsini Səfəvilər dövrünə aid edirlər.

Mehmanxananın həyətində insanların istirahəti üçün yaradılan parkda bir heykəl görünür: bu heykəl Dədə Qorqud heykəlidir. “Kitabi-Dədə Qorqud” dastanının 1300 illiyi şərəfinə 1999-cu ildə ucaldılıb. Müəllifi Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Elman Cəfərlidir.

Olduğum məkanın tam qarşısında, Dədə Qorqud heykəlinin yanında isə XVIII əsrin ortalarında Şərq memarlıq üslubunda inşa edilən İsmayılxan hamamı görünür. Bu tarixi tikili bərpadan sonra günbəzləri qızılı metalla üzlənmiş və sanki yerdən Günəşlə salamlaşaraq bərq vurur.

Sadaladığım bu tarixi və müasir tikililərin fonunda, təbii ki, Naxçıvanın əzəmətini özündə təcəssüm etdirən, Nuh gəmisinin çırpılaraq haçaladığı Haçadağ zirvəsi görünür. Sanki şəhəri bağrına basaraq tarix yaddaşımıza şahidlik edir.

Gözəl yurdumuzu seyr etdiyim “Təbriz”dən çıxarkən şair Elxan Yurdoğlunun Naxçıvana həsr etdiyi “Naxçıvan dastanı”ndan bir neçə misra yadıma düşür:

*Mənim tarixlərə şahidlik edən*
*Qocaman şəhərim gəncləşir hər gün.*
*Hər səhər şeirimə bir misra verir,*
*Ruhumu oxşayır şəhər büsbütün.*

“Təbriz”dən gördüklərim mənə Azərbaycanın qurucusu və memarı Ulu Öndərimiz Heydər Əliyevin sözlərini xatırladır: ***“Naxçıvan artıq 1991-92-93-cü illərdə olan Naxçıvan deyil. Naxçıvan indi tamamilə başqadır. Naxçıvanlılar özlərinin dəyanəti, dözümlülüyü, qüdrəti, cəsarəti və mənəvi saflığı ilə bu haqqı qazanıblar... ...İndi Naxçıvan böyük inkişaf yoluna düşübdür”.***

Aidə İBRAHİMOVA

## Bu axşam dualar nə qədər çox olsa, ürəklər də o qədər geniş olar

Qədim Ordubad elinin könül süfrəsini bəzəyən orucluq ayının 15-i ənənəsi gəlib çatdı. Bu gün ordubadlılar üçün bir başqa gündür. Bu gün hər evin ocağı yanır, hər ocaqda qazanlar qaynayır. İllərin, qərinələrin şahidi bir adət olan orucluq ayının 15-i ordubadlılar üçün təkcə günlərin sayı deyil, həm də insanların mənəviyyatındakı işığın, sevginin, mərhəmətin ifadəsidir. Bu axşam hər kəsin süfrəsi açıq, evi qonaq-qaralı olur. Ordubad mətbəxinin ləziz yeməkləri – düşbərə, paxlava, fəsəli, südlü aş, qovurmalı plov süfrədə yer alır. Bir məhəllədən o birinə yayılan plovun ətri, məhəllənin ağsaqqallarının xeyir-duası, gənclərin bir-birinə uzanan yardım əli – bunlar Ordubadın ruhudur.

Orucluq ayının 15-i qapılar açıq olur, təkcə süfrələr yox, qəlblər də genişlənir. Kimin evində bolluq varsa, onun bərəkətindən kasıbın da süfrəsinə pay düşür. Analar təndirdə isti çörək bişirir, qaynar samovarlardan ətirli çay süzülür, Ordubadın şirin mürəbbələri mis kasalara düzülür. Və bu axşam bir adət unudulmur – kim daha çox ehtiyac içindədirsə, ona səssiz-səmirsiz əl uzadılır. Bəzən bu, bir kasa isti şorba, bəzən bir tikə çörək, bəzən isə bir xoş kəlmə olur.

Təkcə Ordubad şəhəri və onun ətraf kəndlərinə xas olan orucun 15-i mərasimi müqəddəs Ramazan ayının tən ortasında qeyd olunur. Bu bayramı insanların belə təntənə ilə keçirməsi “artıq Ramazanı yarıladıq” anlamına gəlir. Ordubadın dünyagörmüş adamları deyir ki, biz gözümüzü açandan bəri bu mərasimə bir neçə gün qalmış hər evdə hazırlıq görərlər. Həmin gün nişanlı qız evinin valideynləri bəyi görmək üçün oğlan evinə gələrlər. Ailənin üzvlərinə, xüsusilə bəyə hədiyyələr gətirərlər. Bu mərasimdə kiçik-böyük, hər kəs iştirak edər, insanlar bişirib düşürdükləri azuqələrdən yaxınına, qohumuna, tanışına göndərərlər. Hər məhəllə sakinləri bişirib-düşürdükləri naz-nemətlərdən götürər, yaşadıqları məhəllədəki bir ağsaqqal və ya ağbirçəyin evində toplaşıb könül xoşluğu ilə, ağız dadı ilə həmin naz-nemətlərlə iftarlarını açarlar. İftardan sonra hər kəs öz evinə gedər, uşaqların, gənclərin onların qapılarına torba atmasını gözləyər. Bu bayramda uşaqlar, xüsusilə torba atmaq ənənəsini çox sevir. Tanınmamaq üçün qızlar oğlan paltarı geyinir, üz-gözünü boyayır, papaq qoyur. Məhəllənin uşaqları yığışıb bir-bir qonşuların qapısını döyüb deyirlər:

*Orucun 15-dir gəldik sizə,*
*orucun niyazını verin bizə,*
*Xanım, ayağa dursana, boşqabı doldursana,*
*Oğlun, qızın var olsun, doğduğun oğlan olsun,*
*Sonbeşiyin qız olsun, açılsın sünbül olsun.*

Kimsə pay verməsə, onlara tərəf üz tutub söyləyir:

*Pay verənin oğlu olsun, verməyənin qızı olsun.*

Sonda uşaqların içində ən böyüyü yığılmış payı hər kəs arasında bərabər bölür.

Hava qaralanda Ordubad məscidləri işıqlanır. Ordubad sakinləri məscidlərə axışır, ürəklər paklanır. Anaların dilindəki “Evimizdən bərəkət, övladlarımızdan xeyir əskik olmasın!” duaları göylərə yüksəlir.

İllərin, əsrlərin süzgəcindən keçib gələn bu adəti eyni sevgi, eyni mərhəmət, eyni qayğı ilə ordubadlılar da övladlarına ötürürlər. Bəlkə də, sabahın Ordubadı yenə də bugünkü qədər qədim olacaq, ənənələr əsla köhnəlməyəcək. Çünki ordubadlılar inanır ki, adətlər keçmişin qalıqları deyil, onları gələcəyə aparan işıqdır.

Gülcamal TAHİROVA



## IV Beynəlxalq İpək Yolu Konqresi bu dəfə Antalya şəhərində keçirilib

7-9 mart 2025-ci il tarixlərdə Türkiyə Respublikasının Antalya şəhərində Naxçıvan Dövlət Universitetinin təsisçisi olduğu IV Beynəlxalq İpək Yolu Konqresi keçirilib. Tədbir Naxçıvan Dövlət Universiteti və İKSAD-Türkiyənin birgə təşkilatçılığı ilə Bülent Ecevit Kültür Mərkəzində baş tutub.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru, IV Beynəlxalq İpək Yolu Konqresinin fəxri sədri Elbrus İsayev açılış nitqi söyləyib.

Rektor qeyd edib ki, Böyük İpək Yolunun bərpası Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, Ulu Öndərin tarixi İpək Yolunun bərpası üzrə beynəlxalq konfransın keçirilməsi haqqında imzaladığı 1998-ci il 7 iyun tarixli Sərəncamı Azərbaycanın dünya birliyi ölkələri ilə inteqrasiyasının gücləndirilməsində müstəsna rol oynayıb. Rektor Elbrus İsayev, həmçinin tarixən strateji mövqedə yerləşən, beynəlxalq nəqliyyat dəhlizi kimi diqqətləri cəlb edən Naxçıvanın müasir dövrdə də Böyük İpək Yolu üzərində iqtisadi-mədəni əlaqələrinin inkişafı məsələlərinin əhəmiyyətindən bəhs edib. Zəngəzur dəhlizinin fəaliyyətə başlamasının gələcək perspektivlərini, müasir çağırışlarını nəzərə çatdırıb, “Türk qapısı” adlandırılan Naxçıvanın bu məsələdə xüsusi yer aldığını əlavə edib.



Konqres öz işini üz-üzə və onlayn keçirilən bölmə iclasları ilə davam etdirib. Bölmə iclaslarında 17 müxtəlif ölkədən 150-dən çox tədqiqatçı tərəfindən bir sıra mövzular üzrə 90-dək məruzə təqdim olunub. Sonda tədbir iştirakçılarına NDU-nun rektoru Elbrus İsayev tərəfindən plaketlər təqdim olunub.

# Ədəbiyyata əbədi sevgimlə keçmişi gələcəyə daşıyan məbədəm mən!







Zamanın axarının səssiz şahidi olsam da mən, tarixin qaranlıq səhifələrinə iz salan iti qələmlərin hər küncümdə əks-sədası duyulur. Düz altmış ildir ki, ulu diyar Naxçıvanın ədəbi dünyasının ruhunu qoruyur, sözün sehrini gələcək nəsillərə ötürürəm. 60 il öncə sadə bir xəzinə idim. Amma illər keçdikcə yaddaşım genişləndi, xəzinəm zənginləşdi. İndi iyirmi üç mindən çox eksponatımı sinəmdə qoruyuram – əlyazmalar, qədim kitablar, qəzet və jurnallar, xatirə əşyaları… Hər biri mənim danışan dilim, görən gözümdür. Divarlarımın arxasında Azərbaycan ədəbiyyatının nəhəngləri bir araya gəlib. Nizami əzəmətli heykəli, hikmət dolu sözləri ilə, Füzuli qəlbi közə döndərən misraları ilə, Nəsimi amansız edamın belə sındıra bilmədiyi ruhu ilə, Hüseyn Cavid bir əsrin dərdini daşıyan məsum baxışları ilə buradadır… Bəs Mirzə Cəlil? Axı mənə yaraşıq verən onun adıdır. Necə də qürurludur böyük dramaturqun adını daşımaq… Onun iti qələmi cəmiyyətin güzgüsü oldu, insanları haqqa səslədi. 100 il keçməsinə baxmayaraq, öz al-əlvanlığını itirməyən “Molla Nəsrəddin” jurnalının satirik təsvirləri, satiranın gülüş arxasındakı acı həqiqətləri zənginliyimə zənginlik qatdı. Məndə təkcə sözlər yaşamır, fırça ustalarının izləri də var – Əzim Əzimzadənin kəskin karikaturaları, İsmayıl Axundovun ecazkar lövhələri, Naxçıvanın gözəlliklərindən ilham alan neçə-neçə rəssamların rənglərin sehrindən yaratdığı tablolar… Mənim keçmişim qədər, gələcəyə də bir borcum var; Naxçıvan torpağının yetişdirdiyi böyük şair və yazıçıları yaşatmaq! Məmməd Arazın Vətən həsrəti, İslam Səfərlinin duyğulu misraları – hamısı burada, mənim ürəyimin dərinliklərindədir.

Ədəbiyyatı misralarında yaşadan Süleyman Rüstəmin əlyazmalarını da qoruyuram mən. Onun hər sətrində xalqının səsi, arzuların işığı var. Onlar təkcə kağız deyil, şairin ruhunun incə bir parçası, dövrün çırpınan ilhamıdır. O sətirlərdə Vətənə sədaqət, sevgi, inam var – illər keçsə də, dəyişməyən, sınmayan, əyilməyən inam.

İncə ruhu, poetik baxışları ilə şeirlərində öz parlaq izini qoyan Mədinə Gülgünün duyğuları rəqs edir köksümdə… Hər misrada sevgi ümidlə qovuşur. Onun hər sətri sanki duyğuların rəng palitrasıdır.

Əziz Şərifin qələmi isə ədəbiyyatda əks olunan güzgümdür. Onun əsərləri sanki sözün qanad açdığı yerdir. Onun tənqidi baxışı, ədəbiyyata dərin sevgisi hər küncümdə tarixləşən iz qoyub.

Bir guşəm də var ki, sözün, düşüncənin, milli varlığın keşiyində dayanıb. Burada onun qoruyuculuğu zamanın sərt küləklərinə rəğmən çinar kimi boy göstərir. Bu Ulu Öndərə həsr olunan ən əziz guşəmdir. Bu guşədə hər bir eksponat onun ədəbiyyatımıza sevgi ilə qurduğu sipərin, mühafizə divarının nişanəsidir.

Mənim üçün ən gözəl anlar insanlarla dolu olduğum anlardır. O zaman hiss edirəm ki, yaşayıram, yaşadılıram. Hər gün yeni qonaqlar döyür qapımı. Bəzən bir uşaq əlini anasının isti ovuclarından çəkib vitrinlərimdəki köhnə kitabların sirrini çözməyə çalışır. Bəzən bir gənc şair ilham axtarır, qədim əlyazmaların ruhunu hiss etmək üçün. Bəzən bir yaşlı insan astaca divarıma söykənib köhnə günlərini xatırlayır.

Mən keçmişi bu günlə bağlayan körpüyəm. Əsrlər yetməz zamanın içində susmadan danışsam da! Məni dinləyənlər çoxdur. Hər bucağım bir nağıl danışır. Mən ədəbiyyatın müqəddəs məbədiyəm, ruhum sözlə yoğrulub. Bir müəllifin kağızın saralmış səhifələrində iz qoyan göz yaşları, bir şairin misraları arasında gizlənən gülüşü sirr kimi saxlayıram. Qoynumda illər əvvəl yazılmış sevgi məktubları pıçıldayır, qələmlərin ucundan damlayan kədər köksümə od qoyur. Ədəbiyyata əbədi sevgi ilə keçmişi gələcəyə daşıyıram, hər səhər qapılarım açıldıqda sanki yenidən doğuluram.

İllərin tozu çiynimdə, zamanın pıçıltıları isə hər küncümdədir. Yüzyaşlı Tarix Muzeyindən sonra ulu diyarda yaradılan ən qədim ikinci muzeyəm mən… Hələ yüzə çatmasam da, altmış da az deyil. Altmış ilin içində minlərlə insan açıb qapılarımı, hər addım, hər toxunuş yaddaşımda iz salıb. Poeziyanın melodiyası, nəsrin dərinliyi, dramaturgiyanın möhtəşəmliyini içimdə yaşatmışam. Axı mən ədəbiyyatın daşlaşan yaddaşıyam.

**Gülcamal TAHİROVA**

# Əbülfəz Muxtaroğlu: “Bu günün gənclərinə paxıllığım tutur”

Ötən günlərin söhbətidir. Yeni kitabımı nəşr etdirmək üçün “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinə yollanmışdım. Həyətdə çoxdandır, üz-üzə gəlmədiyim, amma mütəmadi telefonla danışdığım universitet müəllimimi, hamımızın yaxşı tanıdığı şair Əbülfəz Muxtaroğlunu gördüm. Bir əlində kitab tutub, o biri əli ilə çəliyini yerə möhkəm-möhkəm söykək edərək nəşriyyatın pillələrini çıxmağa çalışırdı. Yaxınlaşıb görüşdüm, hal-əhval tutdum, əlindən tutub pillələri qalxmasına köməklik etdim.

O da mənim kimi nəşriyyata gəlmişdi. Bu yaxınlarda 85 yaşının tamam olması münasibətilə hazırladığı “Bioqrafiya-85” kitabının son düzəlişlərini etmək məqsədində idi.

Ömrünün 85-ci qışını geridə qoyub, 86-cı baharına doğru yol alan Əbülfəz müəllimin əvvəlki görkəmindən zaman bir çox şeyi alıb aparıb. Cismən zəifləyib, əlində, üzündə qırışlar xeyli çoxalıb, tələbə ikən əlimizdən tutub bizi həyat yollarında daha yaxşı bir gələcəyə aparmağa çalışan müəllimimin bu dəfə öz tələbəsinin əlindən möhkəmcə tutaraq pillələri çıxmasına möhtac buraxıb fələk. Amma zamanın, fələyin, ötən illərin Əbülfəz Muxtaroğlundan ala bilmədiyi tərəflər də var: həyat dolu olması və üzündəki təbəssümü. Birinci mərtəbədən ikinci mərtəbəyə həmişə 5 saniyəyə qalxdığım pillələri bu dəfə müəllimimə ayaq uyduraraq 5 dəqiqəyə çıxanda fikrimdən onunla həmsöhbət olmaq keçdi. Hər ikimiz nəşriyyatdakı işlərimizi yekunlaşdırandan sonra növbəti 5 dəqiqəlik yolu da qalxıb mənim üçün dopdoğma olan “Şərq qapısı” qəzeti redaksiyasına qalxmağa və qəzet üçün bir müsahibə verməsinə razı saldım Əbülfəz müəllimi.

Qəzetin baş redaktoru Sara Əzimovaya fikrimi dedəndə o da çox müsbət yanaşdı bu təklifə. Bu yerdə bir məqamı da qeyd edim ki, 2005-ci ilin yaz günlərinin birində Sara Əzimovanın “Şərq qapısı” qəzetinə ilk yazısı daxil olmuşdu. Əbülfəz Muxtaroğlu ilə müsahibəsi. Redaktor o vaxt həmin yazını şöbə müdiri kimi mənim üzərimə yazmışdı. Çox axıcı, maraqlı və ədəbiyyat dolu həmin müsahibə cüzi dəyişikliklə qəzetdə dərc olunmuş və beləliklə, bu gün qəzetə rəhbərlik edən köhnə silahdaşım Sara xanımın mətbuatda ilk yazısı işıq üzü görmüşdü. Bir vaxt Sara Əzimovanı “Şərq qapısı”na gətirən adamı bu gün mən “Şərq qapısı”na gətirmişdim. Qapısı həmişə açıq olan müxbirlər otağına girdik. Əbülfəz müəllimə masalardan birinin arxasında əyləşməyə kömək edib müsahibəyə başladıq:



*– Əbülfəz müəllim, 85 yaşınız tamam oldu. Bu münasibətlə sizi həm öz adımdan, həm də oxucularınız adından təbrik edirəm. Geriyə boylananda ömür yolu necə görünür?*

– 85 ilin necə keçdiyini bilmədim. Bəlkə də, uşaq vaxtı, gənclik vaxtı, lap elə ortayaşlı dövrdə qarşıdakı bir il çox böyük bir zaman kimi görünür. Amma 85 yaşdan geriyə boylananda bu illərin nə qədər sürətlə keçib getdiyinə heyrət edirsən. Yaşanan ömrün necə göründüyünə gəldikdə isə hamar olmadığını deyə bilərəm. Kələ-kötür bir yoldur ömür. Hərdən xoş üzünü də göstərir. Əgər bu yolda bir düzlük varsa, mütləq səni daha çətin sınağa hazırlayır. Eyni zamanda da əgər yoxuş yuxarı dırmaşmağa məcbur edirsə, sonunda mükafatı da var. Həyatı bu cür gördüm, 85 ili belə yaşadım.

*– Filologiya üzrə fəlsəfə doktorusunuz, dosentisiniz. Uzun illər Naxçıvan Dövlət Universitetində, Naxçıvan Müəllimlər İnstitutunda dərs demisiniz. İndi artıq yorğunluğun dincini alırsınız. Darıxırsınız heç?*

– Çox. Əvvəla, müəllim yoldaşlarım üçün darıxıram. Mənim həmyaşıdlarımın çoxu bu dünyadan köçüb. Onlarla bağlı xoş xatirələr yada düşəndə darıxmamaq mümkün deyil. Tələbələrim üçün darıxıram, auditoriyada o alovlu, həvəsli dərs dediyim zamanlar üçün darıxıram. Belə anlarda qocalıqla savaşmaq istəyirsən (gülür). Qələm dostlarımla ədəbi müzakirələr apardığım günlər üçün də burnumun ucu göynəyir.

*– Bəs ədəbi yaradıcılıq? Yeni şeirlər varmı?*

– Daha çox qısa fikirlər şəklində poetik nümunələrimi yazıram. Mən onsuz da elə də məhsuldar şair deyiləm. Bu yaşıma qədər 4-5 şeir kitabım nəşr olunub. Ona görə də son illərdə üst-üstə yığsam, 15-20 şeir ola, ya olmaya. Amma həm öz yazdıqlarımı imkan düşdükcə yenidən oxuyur, indiki ağlımla elə yox, belə yazardım deyə düşünürəm, həm də qələm dostlarımın mənə göndərdikləri yeni kitablarını həvəslə oxuyuram. Bunlar elmi kitablar da olur, bədii kitablar da.

*– Sizinlə qarşılaşanda əlinizdə bir kitab gördüm. Deyəsən, yeniliklər olacaq...*

– Elxan, artıq 85 yaşımı geridə qoydum. Bu dünyada məndən nə qalacaq, kim haqqımda hansı xoş sözləri deyib, əslim-nəslim, məndən sonrakı oğul-uşaq, nəvə-nəticəm kimdir? sualı, bəlkə, gələcəkdə kimisə maraqlandırdı. Onlar üçün Əbülfəz Muxtaroğlunun 85 illik bioqrafiyasını hazırlamışam. Bir neçə hekayəsi olan, ölkəmiz, xalqımız və mənim üçün mühüm əhəmiyyət daşıyan şeirlərim də var ki, onları da həmin kitaba daxil etdim.

*– Bir növü 85 illiyinizə özünüzdən bir hədiyyə deyə bilərik.*

– Sözü ağzımdan aldın, eynən sən deyən kimi.

*– Sakit və səbirli pedaqoq-alim Əbülfəz Quliyevdən fərqli olaraq şair Əbülfəz Muxtaroğlu həssas, çılğın və hərəkətli biri idi. Təqaüddə olsanız da, bəzən sizi şəhərdə aram-aram gəzişən görürəm. Özüm də şair olduğum üçün, şeirlərimizi təklikdə yol gedə-gedə də yazdığımızı bildiyimdən, yaxınlaşıb fikrinizi dağıtmaq istəmirəm. Amma mənə maraqlıdır, şəhərimizdə nə kimi dəyişikliklər görürsünüz?*

– Çox canlanıb Naxçıvan şəhəri. İnsanlar, maşınlar çoxalıb, küçələrdə, meydanlarda, parklarda iaşə obyektlərinin də çoxaldığını görürəm. Axşamlar elə də çıxmaq imkanım olmur, amma evdəki söhbətlərdən eşitdiklərimə görə rənglənib şəhərimiz. Xəyalım məni uşaqlıq, gənclik illərimə, dərs dediyim zamanlara aparır. Açığı bu günün naxçıvanlılarına, xüsusən gənclərə paxıllığım tutur. Bu dövrün gəncləri üçün yaradılmış imkanlar o vaxtlar bizim üçün xəyal idi.

*– Elə isə özünüzü hansı dövrün insanı kimi görürsünüz?*

– Mənə elə gəlir, hər kəs uşaqlığının, gəncliyinin adamıdır. Nə qədər indiki imkanlar daha yaxşı olsa da, yaşanmış xoş xatirəli illər üçün hamımız darıxırıq. İnsan isə darıxdığı yerin və zamanın adamıdır.

*– Əbülfəz müəllim, sizə bundan sonra da cansağlığı, üzünüzdəki bu təbəssümün heç vaxt əskilməməsini arzulayıram. Özünüz söhbətin əvvəlində qeyd etdiniz ki, zaman sürətlə keçir. O keçən zamanın növbəti 5 ilinin sonunda – 90 yaşınızda növbəti kitabınızı çıxarasınız və o zaman da, bəlcə, 90 illik ömrə boylanıb söhbətləşək.*

– Qismət!

Müsahibə boyu qəzetin əməkdaşları, fotoqraf Əsəd Səfərov, müxbir Bülbül Quliyeva, “Şərq qapısı” qəzetinin Texniki yaradıcılıq bölməsinin müdiri Məhəbbət Mirzəyeva da söhbətimizi maraqla dinləyirdilər. Hamımızın yaxşı tanıdığı, şeirlərini sevərək oxuduğumuz Əbülfəz Muxtaroğlunun bir əlindən mən tuturam, o, bir əlində çəliyi tutur. 5 dəqiqəyə qalxdığımız pillələri 2-3 dəqiqəyə düşürük. Addımlarını da cəld atır, üzünün qırışları da sanki tarımlaşıb. Hiss edirəm ki, şairi təkliyindən qoparanda cavanlaşdırırsan. Belə adamları tez-tez ziyarət etməliyik, söhbətləşməliyik, xatirələrini dinləməliyik, həyat eşqi aşılamalıyıq.

Qəlbi həyat dolu olan müəllimimi, alim və şair həmkarımı maşına əyləşdirib evlərinə aparanda da ruhunun nə qədər gəncləşdiyini görməmək mümkün deyildi.

***Söhbətləşdi:***
**Elxan YURDOĞLU**



# Azadlıq üçün səssiz hayqırtı

**"Şərq qapısı" qəzetinin şöbə müdiri Ceyhun Məmmədov Naxçıvandakı Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində cəzaçəkən əcnəbi vətəndaşlardan reportaj hazırlayıb**



✍ Ceyhun MƏMMƏDOV

"Şərq qapısı" qəzeti Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində cəzaçəkən əcnəbi vətəndaşlarla reportaj hazırlayıb.

Fevralın qarlı havası, iyulun istisi, yaxud oktyabrın sərini: onlar üçün ilin bütün fəsilləri eynidir, daha doğrusu, onlar ilin bütün fəsillərini bu dörd divar arasında qarşılayır. Küləkli havada göydən sanki buz yağır – sərt külək addım atdıqca adamın üz cizgilərinin quruluşunu belə dəyişir. Hər yeri Boz ay öz ağuşuna alıb, gözünü qıymadan uzağı görmək mümkün deyil, hər yer ağappaqdır. Gedəcəyimiz yerə aparan yolun ta o başında qaraltı görünür. Geniş yoldur, sanki bir insan taleyinin həyata bağlandığı, hətta başladığı nöqtədir. Bu yolu gülərək getmək çoxlarının arzusudur. Getdikcə sanki yer insanın ayaqlarının altından qaçır. İlahi, bu yollar nələr görüb, kimlərin taleyinə şahidlik edib. Bəlkə də, bu yollar dəfələrlə gözyaşları ilə yuyulub. Ayağın torpağa yapışdığı yerdir bu yollar, getməyə macal vermir insana. Çətindir insanın öz həyatını, azadlığını qoruması, həm də gözəl nemətdir azadlıq. Bəzən səhv addım atarkən bu düşünülmür. "Azadlığı əldən vermək həyatda yelləncəkdə sallanmaq kimidir", – deyirlər, ayağını yerə bərkitsən, dayanacaqsan...

Burada hər kəs bir-birinə bənzəyir. Tanrı bura yolunu "salanların" hamısının taleyini sanki bir gündə yazıb, bəlkə də, rəhmi gəlməyib. Eyni tale, eyni qismət, eyni düşüncə, eyni geyim və daha nələr-nələr. Hətta binaların görünüşü, rəngi, dəmir pəncərələr arxasında baxan eyni gözlər. O binaların içərisində yaşayanlar nə qədər qara günlər keçirib, nələr yaşayıb, hisslərini necə boğub, İlahi. Tanrı şahiddir buna, bəlkə də, yox. Çoxu elə Tanrıdan şikayətçidir, pis əməllərə qurşanmasına yol verdiyi üçün. Gecdir artıq şikayətlənmələri, həyatlarını bu minvalla yaşamağa məcburdurlar.

Ətrafdakı tikanlı məftilləri sezə-sezə həbsxanada nələrdən danışacağımı götür-qoy edirəm. Burada düşüncələr də adamı yorur, düşündüklərimi çoxdan götür-qoy ediblər, bəlkə də. "Sakinləri" kimi bir-birinə bənzəyən binalara baxıram, irəlidən səs eşidilir, məhbusların səsi, dayanmadan yolumuza davam edirik. Bizi müşayiət edən Təhmin Mirzəyev gedəcəyimiz yeri göstərir, yanımızdan ötüb keçən məhkumlara baxırıq, azadlıq həsrətini burnunun ucunda hiss edənlərə. Binaya daxil oluruq, bir anlıq sanki sükut çökür içəri, hər kəsin nəzərini üzərimizdə hiss edirik. Çəkiliş aparacağımızı, onlarla söhbətləşəcəyimizi deyirik. Qarışıq rejimli cəzaçəkmə müəssisəsində vəziyyətlə maraqlanırıq, hamısı "Hər şey yaxşıdır, bizimlə yaxından maraqlanırlar", – deyir. Etiraf edim ki, gözlərindən hiss olunurdu hamısı peşmandır azadlıqlarını əldən verdikləri üçün. Dəmir barmaqlıqlar arxasında gözləri yolda qalıb, həsrət çəkirlər. Diqqətimizi cəlb edən bir məqam isə cəzaçəkmə müəssisəsində yerli məhkumlarla yanaşı, əcnəbi vətəndaşların da cəza çəkməsi oldu.

Ömrünün artıq 10 ayını bu dəmir barmaqlıqlar arasında keçirir Əli Kalaycıoğlu. Türkiyə vətəndaşı olan Əli deyir ki, ən çox ailəsi üçün darıxıb: "3 övladım var, həsrət çəkirəm, onları görmürəm. Həbsxana həyatını heç kimə arzulamıram. Burada hər şey qaydasındadır, ancaq həyatda ən önəmli şey olan azadlıq əlimizdən alınıb. Təsəvvür edirsiz, 17 aydır, uşaqlarımı görmürəm, maddi vəziyyətə görə gələ bilmirlər. Ailənin ən böyüyü mənəm, gələ bilmələri üçün çətinliklər var, həyatın hər bir anı çətindir. Necə ki çörəyi çeynəmədən uda bilmirsinizsə, bu da belədir. Mən onların rahatlığı üçün bir yola çıxdım, amma Allah mənim yolumu bura saldı.

Ailəm hazırda Kocaeli şəhərində yaşayır. Burada tək çətinliyimiz həsrətdir, özləmdir. Bir tək böyük övladım bilir ki, həbs olunmuşam, digərləri bilmir. TIR sürücüsüyəm və həyat yoldaşım onlara hələ də səfərdə olduğumu deyir. Bunun hesabını uşaqlarıma verə bilmirəm. Böyük övladım da heç soruşmadı. Bir dəfə həyat yoldaşım soruşdu ki, "Niyə belə oldu?", eləcə "Oldu", – dedim, başqa bir şey deyə bilmədim. Çünki bəhanəm yoxdur, bura dünya üzərində gəlinə biləcək son nöqtədir, bura insanlıq üçün son nöqtədir. deyərdim. Çöldə etdiyin bütün səhv addımları burada oturub fikirləşirsən, "Bir daha bu hərəkətləri etməyəcəyəm", – dediyin yerdir bura. Burada bizə nə qədər yaxşı baxsalar da, yenə də azadlıqda deyilik".

Dost qurbanına çevrilən Özcan Catuq deyir ki, həyatında ən böyük səhvini edib. Yol uzaq olduğu üçün tez-tez yanına gəlib-gedə bilmirlər, yalnız telefonla əlaqə saxlayır. Həmyerlisindən fərqli olaraq onun övladları hələ də atalarının həbsdə olduğunu bilmirlər: "Hələ uşaqlarım kiçikdir, yolda olduğumu bilirlər. Bu hərəkətimə görə uşaqlarımdan, valideynlərimdən utanıram. Onların da üzlərindən görürəm ki, mənim üçün utanırlar".

Özcan həm də daha çox ailəsinə vaxt ayırmadığı üçün peşmandır: "Narkotik qəbul etdiyimdə ailəmə vaxt ayıra bilmirdim, bunun üçün çox peşmanam. Bundan sonrakı həyatımda düzgün yaşamağı, ailəmlə daha çox vaxt keçirməyi düşünürəm. Burada olduğum müddətdə dostlarımla danışmamışam, heç axtarmayıblar da. Həbsxanada məhbusların rahatlığı, cəmiyyətdən ayrı düşməməsi üçün hər bir köməklik edilir, sadəcə, azadlığımız əlimizdən alınıb. Başqa problemimiz yoxdur. Ancaq cənnət də olsa, həbsxanadır".

"23 ay o qədər çətin gəldi ki... Bunu sözlə ifadə etmək də bir o qədər asan deyil", – deyən İran vətəndaşı olan Abdin Əli də sərhəddən qanunsuz dərman keçirərkən həbs olunub: "TIR sürücüsüyəm, belə olacağını bilmirdim, etdiyim əmələ görə peşmanam. Ailəm mənim üçün çox narahatdır, həbs olunanda gəldilər, maraqlandılar. Amma indi sərhədlər bağlıdır deyə gələ bilmirlər. Buna baxmayaraq, həftədə iki dəfə ailəmlə telefonla danışıram. İki övladım var və mənim həbs olunduğumu bilirlər. Bu da onlara psixoloji təsir göstərir, onlara görə narahatam. Ailəm və azadlığım üçün darıxıram".







Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində olarkən diqqətimizdən yayınmayan əsas məqamlardan biri də məhkumların rahatlığı oldu. Onlar istirahət otağında mütaliə edir, mavi ekranda dünyada baş verənləri izləyirdilər. Özlərinin dediklərinə görə, onları əsl həyata elə mütaliə etdikləri kitablar hazırlayır. Yeməkxanada olan təmizliyi, qazanlarda bişən yeməkləri gördükdə, müəssisədə məhkumlara göstərilən diqqətin hansı səviyyədə olduğunu demək olar.

Zaman yetişir, getmək vaxtıdır, ayağa qalxırıq, söhbətləşdiyimiz məhbuslarla sağollaşırıq. Sanki nəsə demək istəyirlər, ancaq bəzən qürurları, bəzənsə peşmanlıqları buna imkan vermir. Nə düşündüklərini, duyğularının, hisslərinin nə olduğunu gözlərindəki işıltıdan sezmək mümkündür: övladlarına salam deməyimizi, gözü yol çəkən analarına sağ-salamat olduqlarını, burada özlərini qərib hiss etmədiklərini, azadlığa həsrət qaldıqlarını çatdırmaq istəyirlər. Və yalnız azadlıq? Buranın həsrət qoxan dəmir pəncərələrindən baxaraq itirdiyin zamana və sənin üçün doğmalarının itirdikləri ömrə heyifsilənmək, övladlarının uşaqlıq illərini görməmək, həbsxanadakı çətinliklər və nəhayət, cəmiyyətin sənə münasibəti. Çətini isə Tanrıdan şikayətlənmələridir – özünə və ya onlara olan münasibətinə görə. Tək qaldıqlarında sığınaraq imdad dilədikləri bu dörd divar arasında səslərinə səs verəcək kimsə olmadığında, bəlkə, onları duyan da elə Tanrıdır.

Yenə o enli yol, yenə eyni rəngli binalar, yenə dəmir barmaqlı pəncərələrdən baxan məhkumlar... Nə vaxtsa bu yolu getmək arzusudur, bəlkə, onların səbirlərini ərşə çəkən, nə vaxtsa o qapıdan çıxıb azadlığın tamında həyatın qoynuna atılmaq istəyirlər. Gəldiyimiz ağ örpəyə bürünən bu yolda indi ayaq izləri yoxdur, sanki cığır açırıq, bəlkə, gələcəkdə açdığımız bu yolda ağır hüzn, gərgin ab-hava olmayacaq, bəlkə də, bu yol çoxlarını ayaqlarını yerə bərkitmədən azadlığa aparacaq. Həm də səhvsiz... Buranı tərk edərkən azadlığın Tanrı tərəfindən insana verilən necə bir gözəl nemət olduğunu bir daha anlayırsan.

# Təndirdə bişirilən balqabaq doldurması



Milli mətbəx təamlarımızın ən dadlılarından biri də balqabaqdır. İstər isti yeməklər, ara yeməkləri sırasında, istərsə də çay süfrəsində balqabaqdan hazırlanan təamları görürük. Konkret olaraq bu yazıda Naxçıvan mətbəxində bu məhsuldan hazırlanan yeməklərdən bəhs edəcəyik. Onlardan biri kətələrdir ki, balqabaq kətəsi dadı, eləcə də sağlamlığa faydası ilə seçilir. Bununla yanaşı, təndirdə bişirilən balqabaq doldurması həm estetik görüntüsü, həm də dadı ilə faydalı yeməklər sırasındadır.

Bəs balqabaqdan hazırlanacaq təamlar hansı prosesdən keçir? İlk olaraq balacaboy, yumru, sarı balqabağın saplaq tərəfdən baş hissəsi kəsilir. Sonra liflərindən və toxumlarından təmizlənir. İçliyi üçün isə ət və noxud ləpəsi qaynadılıb süzülür. Ət qiymələrə ayrılır və doğranmış soğan ilə kərə yağında qovrulur. Bəzi hallarda qiyməni qovurma ilə də əvəz edənlər olur. Çünki qovurma ilə bişirildikdə fərqli dad verir. Sonra içliyə sarıkök, istiot, duz əlavə olunur. Qış yeməklərində daha çox istifadə olunan alça, almaxara, ərik quruları əzilərək və ya balaca doğranaraq içliyə qatılır. Hətta şabalıd, cəviz, kişmiş, göyərti də qarışdırılıb balqabağın içərisinə yığılır.



Qeyd edək ki, içliyi doldurmazdan öncə balqabağın içərisinə duz səpilir. Başı kəsilmiş balqabağın digər hissəsi qapaq kimi balqabağın başına qoyulur. Təndirin alovu sönəndən sonra közün üzərinə xüsusi lay dəmir parçası atılır. Daha sonra balqabağı təndirə sallayırlar. Təndirin ağzı bağlanılır, həzin köz istisində balqabaq bişir.

Qədim milli mətbəx nümunəmiz olan balqabaq doldurması müasir dövrümüzdə xanımlarımız tərəfindən elektrik sobalarında da bişirilir. Amma xüsusi qeyd etmək lazımdır ki, təndir ənənələri muxtar respublikanın rayon və kəndlərində davam etdiyi üçün çox hallarda təndirlər qadınlarımızın köməyinə yetir. Təndirdə köz üzərində bişən bütün təamlar, o cümlədən balqabaq doldurması da çox dadlı olur.

**Aidə İBRAHİMOVA**

# "Rənglərlə arzularıma doğru" mövzusunda fərdi sərgi açılıb

Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində "Rənglərlə arzularıma doğru" adlı fərdi hesabat sərgisi açılıb. Sərgidə yaradıcılıq mərkəzinin Estetik tərbiyə, təsviri incəsənət və musiqi şöbəsinin rəsm dərnəyinin üzvü Zenfira Kazımovanın əl işləri nümayiş olunub.



Tədbirdə Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Təhminə Mustafayeva, Naxçıvan Rəssamlar Birliyinin sədri, Əməkdar rəssam Ülviyyə Həmzəyeva, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Gülxarə Tarverdiyeva və digər sənətsevərlər çıxış edərək sərginin mədəni və təhsil əhəmiyyətini vurğulayıblar.

Çıxış edənlər sərginin gənc istedadlara öz yaradıcılıq potensialını ifadə etmək üçün geniş imkan yaratdığını bildiriblər. Həmçinin sərginin mədəniyyətin inkişafına, gənclərin sənətə marağının artırılmasına və yaradıcılıq sahəsindəki innovativ yanaşmaların dəstəklənməsinə öz töhfəsini verdiyini qeyd ediblər.

Bildirilib ki, bu tədbir həm yerli incəsənətin tanıdılması, həm də gənc rəssamların uğur qazanması baxımından mühüm addım sayılır. Sərginin uğurlu keçirilməsi, mədəniyyət və təhsil sahəsində aparılan işlərin nə dərəcədə önəmli olduğunun bariz nümunəsidir.

Qeyd edək ki, Zenfira Kazımova yüksək bacarıq və istedadına görə təltif olunub. Sonda sərgiyə baxış keçirilib.






# Naxçıvan idmançılarından 11 medal

"Zeyd" Döyüş Mərkəzinin uşaqlar, yeniyetmələr, gənclər və böyüklər arasında I MMA turniri keçirilib. Bakı İdman Sarayında 3 gün davam edən yarışda 62 klubu təmsil edən 459 idmançı iştirak edib.

"Turan" Döyüş Klubunun baş məşqçisi Xəyal Abdullayevin rəhbərliyi ilə Naxçıvandan yarışa 15 idmançı qatılıb. Klub idmançıları 4-ü qızıl, 2-si gümüş və 5-i bürünc olmaqla, ümumilikdə, 11 medal əldə ediblər. Bu göstərici ilə "Turan" yekun komanda sıralamasında yüksək nəticə göstərən 4-cü klub olub.

Təmsilçilərimizdən Nurəddin Əliyev (39 kq) 2008-2009-cu il, Əli Əbilov (42 kq) 2012-ci il, Rəhim Quluzadə (38 kq) 2010-2011-ci il, İsmayıl Hüseynzadə isə (85 kq) 2008-2009-cu il təvəllüdlülər arasında bütün rəqiblərini üstələyərək qızıl medal qazanıblar.

# Azərbaycan güləşçisi fransalı rəqibini məğlub edərək Avropa çempionatının qalibi olub




Azərbaycanın sərbəst güləşçisi Arseniy Djioyev Albaniyanın paytaxtı Tiranada keçirilən U-23 Avropa çempionatının qızıl medalını qazanıb.

86 kq çəki dərəcəsində mübarizə aparan təmsilçimiz finalda Fransa idmançısı Raxim Maqamadova 9:2 hesabı ilə qalib gəlib.

74 kq çəkidə yarışan Ağanəzər Novruzov isə finalda rusiyalı İsmayıl Xaniyevə uduzaraq gümüş medalla kifayətlənib. Daha bir gümüş medalı isə Ceyhun Allahverdiyev (61 kq) aktivinə yazdırıb.

# Həftənin hadisələri



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi üzərinə düşən vəzifələrinin icrası, o cümlədən əhalinin və ərazilərin təbii və texnogen xarakterli fövqəladə hallardan qorunması istiqamətində fəaliyyətini davam etdirir.

Bu həftə ərzində Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə daxil olan zənglər əsasında nazirliyin yanğından mühafizə bölmələri tərəfindən 25 yanğın hadisəsinə çıxış həyata keçirilib.

Belə ki, Ordubad rayonunun Dəstə, Aza, Sabirkənd, Şərur rayonunun Kərimbəyli, Zeyvə, Sərxanlı, Maxta kəndlərində iki ərazidə, Babək rayonunun Zeynəddin, Güznüt kəndləri, Sədərək rayonunun Heydərabad qəsəbəsində bələdiyyəyə məxsus açıq ərazidə, eləcə də Sədərək kəndində ot bağlamalarında, quru otluq və həyətyanı sahələrində yanğın hadisələri baş verib.

Bununla yanaşı, Şahbuz rayonunun Badamlı kəndində Hüseynov Asəf Həmid oğluna məxsus həyətyanı sahədə yerləşən yardımçı tikilidə və Şərur şəhərindəki 1 mərtəbəli, 4 otaqlı fərdi yaşayış evində yanğınlar olub. Hadisə nəticəsində Şərur rayonunun Yengicə kənd sakini, 1942-ci il təvəllüdlü Əliyev Əbülfəz Məmməd oğlu yanaraq ölüb.

Görülən təcili və təxirəsalınmaz tədbirlər nəticəsində yanğınların daha geniş sahələrə yayılmasının qarşısı alınaraq operativ söndürülməsi təmin edilib.



Bu həftə muxtar respublika ərazisində ölümlə nəticələnən bir yol-nəqliyyat hadisəsi baş verib. Hadisə Naxçıvan şəhəri, Nizami küçəsində qeydə alınıb. 77-CD-523 dövlət nömrə nişanlı "Mercedes" markalı avtomobillə 75-TA-336 dövlət nömrəli nişanlı "NAZ-Lifan" (taksi) markalı avtomobilin toqquşması nəticəsində taksinin sürücüsü Naxçıvan şəhər sakini, 1988-ci il təvəllüdlü Cəfərov Sərxan Kamran oğlu vəfat edib. Avtomobildə olan digər sərnişin Babək rayonunun Hacıvar kənd sakini, 2004-cü il təvəllüdlü Sübhan Abbas Aftandil oğlu xəsarət alıb.

Eyni zamanda qəza üçün çağırışa gedən təcili tibbi yardım avtomobili yolda digər bir avtomobil ilə toqquşub. Qəza zamanı təcili tibbi yardım avtomobilində olan Babək rayonunun Zeynəddin kənd sakini, 1970-ci il təvəllüdlü Məmmədova Fatma Talıb qızı və Badaşqan kənd sakini, 1988-ci il təvəllüdlü Novruzov Namiq Paşa oğlu xəsarət alıblar.

Naxçıvan-Ordubad magistral yolunun 2-ci kilometrliyində isə iki avtomobilin toqquşması nəticəsində bir nəfər xəsarət alıb.

Faktlarla bağlı aidiyyəti qurumlar tərəfindən araşdırmalar aparılır.

## İtmişdir

Naxçıvan şəhəri, N.Tusi küçəsi, ev 18, mənzil $7^A$ ünvanında Hüseynov Hüseyn Fazil oğlunun adına olan 21125 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

****

Şərur rayonu, Düdəngə kəndində yaşamış Nağıyev Ağəli Tağı oğlunun adına verilmiş JN-$152^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Nizami küçəsi, bina 44, ev 40-da Səfərova Xatirə Qasım qızının adına olan 9381 nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Sədərək kəndində yaşamış Quliyev Natiq Süleyman oğlunun adına verilmiş JN-$358^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qarabağlar kənd sakini Qasımov Nizami Qasım oğlunun adına olan A-005642 nömrəli torpaq sahəsinin planı və ölçüsü və Naxçıvan Muxtar Respublikası Bələdiyyəsi tərəfindən verilmiş 16 oktyabr 2008-ci il tarixli 176 nömrəli qərarı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kərimbəyli kənd sakini Həsənov Arif Qulu oğlunun adına olan JN-361 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbəsində yaşamış Hümbətova Xanım Əkbər qızına məxsus olan JN-$815^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Yaycı kəndində İmanov Vidadi Əkbər oğluna məxsus JN-$1202^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Danyeri kənd sakini Qasımov Nəriman Həsən oğlunun adına olan JN-320 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər sakini Zeynalov Əsgər Allahverdi oğlunun adına Heydər Əliyev adına Hərbi İnstitut tərəfindən verilmiş diplom itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qıvraq qəsəbə sakini Abbasova Havva Abdulla qızının adına olan JN-$033^A$ nömrəli, 10211018 kodlu torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Zeyvə kəndində İsmayılov Ədalət Əyyub oğlunun adına olan JN-$1485^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbəsində yaşamış Məmmədov Tahar Əkbər oğlunun adına olan JN-$1961^B$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Bənəniyar kənd sakini Əliyev Səbzalı Əli oğlunun adına olan MV-032665 nömrəli Müharibə veteranı vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Kələki kənd sakini Quliyeva Dilşad Xudaverdi qızının adına olan A-014873 inventar nömrəli torpaq sahəsinin planı və ölçüsü üzrə MM-0050607 seriya nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 82

Nömrəyə məsul: Əli Cabbarov, Aidə İbrahimova, Bülbül Quliyeva
Dizayner: Tacirə Vəliyeva

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.